# Ermənistan Gürcüstandakı seçkilərdən nəticə çıxaracaqmı?

*Yaxud Avropa "bulka"sı və 60 avroluq endirimlə rus buğdası arasında seçim*

**Ekspertlərin qənaətincə, Gürcüstanda oktyabrın 26-da keçirilmiş parlament seçkiləri Qərbin yaşadığımız Cənubi Qafqaz platformasındakı ciddi məğlubiyyəti idi. Əlbəttə, söhbət Rusiyaya məğlub olmaqdan gedir. Müşahidəçilər onu da bildirirlər ki, Gürcüstandakı seçkilərin nəticələrinin Ermənistana təsiri var. Başlıca vurğu, ilk növbədə, Hayastanın Azərbaycanla qarşıdurmada xeyli zəif duruma düşməsi üzərinə qoyulur.**



Əlbəttə, Gürcüstandakı seçkilərlə bağlı başqa amillərə də nəzər salmaq mümkündür. Məlum olduğu kimi, ölkə hazırda Avropa, konkret olaraq, Şengen zonası ilə vizasız gediş-gəlişə malikdir. O da məlumdur ki, son dövrlər rəsmi Tbilisinin müstəqil siyasət yeritməsinə qarşı çıxan Qərbin ayrı-ayrı liderləri məhz bu imtiyazın ləğvinə yönələn fikirlər səsləndirir və elə görüntü yaradırlar ki, sanki, həmin imtiyazın aradan qaldırılması Gürcüstana fəlakət gətirəcək.

Bəli, Qərbin gürcü iqtidarına təsir və təzyiq baxımından başqa aləti yoxdur, bu, öz yerində. Qərbə inteqrasiya yolu tutduğunu bəyan edən Ermənistanda isə mövcud xüsusudakı söz-söhbətlərdən gəlinən nəticə ondan ibarətdir ki, hazırda Avropanın ermənilərə vəd etdiyi yalnız vizasız gediş-gəlişdir. Yəni, rəsmi İrəvan və tərəfdarları Qərbə inteqrasiyanın faydalarına dair başqa tutarlı nə isə demirlər, daha doğrusu, deyə bilmirlər. Belə də təəssürat var: ermənilər Rusiyanın hesabına qazandıqları pulu Avropada xərcləmək istəyirlər, "köhnə qitə" isə yalnız vizada endirimi edəcək, vəssalam.

Pula gəldikdə, Ermənistanın sanksiya altında olan rus mallarını xaricə daşımaqla – təkrar ixrac gerçəkləşdirməklə, habelə, xaricdən Rusiyaya idxalına qadağa qoyulmuş malların çatdırılması ilə büdcəsini artırdığı, baş nazir Nikol Paşinyan iqtidarının öyündüyü iqtisadi inkişaf tempinə nail olduğu məlumdur. Belə bir durum Moskvaya da, İrəvana da, eyni zamanda, ikincini əlini cibinə salmadan dolandırmaq istəyən Qərbə də sərfəlidir. Ona görə heç bir tərəfdən səs çıxmır. Necə deyərlər, alan razı, satan razı. Bəs sabah Rusiyanın üzərindən sanksiyalar götürülsə, durum necə olacaq? Üfiqdə belə bir perspektiv görünmədiyindən, Ermənistan rəhbərliyi məsələ barədə düşünmür. Çünki onun təmsilçiləri dövlət təfəkküründən uzaq, yalnız ticarət prizmalı məhdud və primitiv yanaşma tərzinə malikdirlər.

Sadə ermənilərin yaşayış səviyyəsi çox aşağıdır. Rusiyanın hesabına qazanılan vəsait isə ancaq baş nazir Nikol Paşinyanın və ətrafınındır. Bir halda ki, Avropaya gedən orta statistik erməni təyyarə üçün bilet pulu tapmır, o zaman 60 avroluq viza xərcinin aradan qaldırılıb-qaldırılmamasının nə önəmi var? Əlbəttə, heç bir xeyri yoxdur. Deməli, əsas məsələ Ermənistan əhalisinin rifahının yaxşılaşdırılması olmalıdır. Eyni zamanda, təhlükəsizliyin təminatı. Görünür, bu məqamı gürcülər daha yaxşı anladıqlarından, Avropanın onlarla yuxarıdan aşağı baxmasına razı deyillər və seçkidə iradələrini ortaya qoydular.

Gürcüstandan fərqli olaraq, Ermənistan rəhbərliyi üçün əhali amili sonuncu yerdədir. Ona görə artıq altı ildir ölkədə sosialyönümlü düz-əməlli layihə reallaşdırılmır. Üstəlik, Paşinyan iqtidarı avantüra naminə erməni gəncini 44 günlük müharibədə qırdırıb, ölkəni Rusiya ilə Qərbin rəqabət plasdarmına çevirib. Daha doğrusu, ikincinin maraq və mənafelərinin təminatı üçün birincini heçə saymaq yolunu tutub.

Hazırda Ermənistan rəhbərliyi Azərbaycanla münasibətləri qaydasına salmağı, sülhə gəlməyi düşünmür, çalışır ki, barış məsələsini geosiyasi rəqabət kontekstində saxlasın, Rusiyanın Cənubi Qafqazdan sıxışdırılması, Azərbaycana qarşı təzyiq metodlarının işlək saxlanılması, İranın təcridi, Türkiyənin asılı hala gətirilməsi oyunlarında başlıca fiqura çevrilsin.

*(ardı 6-cı səhifədə)*

# UNESCO vandalları himayə etməkdən əl çəkmir



**"Azərbaycanın Qarabağda ermənilərin mədəni və tarixi irsini məqsədyönlü şəkildə məhv etdiyi" barədə dünyaya yalanlar üfürən İrəvan bu zaman beynəlxalq təşkilatların dəstəyinə də ümid bəsləyir.**

Belə təşkilatlardan biri UNESCO-dur. İki gün bundan əvvəl Ermənistan xarici işlər nazirinin müavini Vahan Kostanyan Matenadaranda UNESCO ilə birgə konfransda çıxışında bəyan edib: "Qarabağın erməni irsi məhv olmaq və kimliyinin təhrif edilməsi təhlükəsi altındadır".

*(ardı 6-cı səhifədə)*




Xalqın qəzeti!

# Xalq qəzeti

№ 241 (30645) 1 noyabr 2024-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Yeni nəsil qatarlar Bakı Metropolitenini müasirləşdirir



Səhifə ⇨ 2

# Səfir Dekotininin "işğal" məntiqi

**"İnsanlar yaxınlarının məzarlarını ziyarət edə bilmirlər". Bu fikri Fransanın Ermənistandakı səfiri Olivye Dekotini oktyabrın 30-da ölkənin Sünik (Zəngəzur) vilayətinə səfəri zamanı bölgənin Nerkin Hand (Baharlı) kəndində olarkən deyib. Səfirin nə üçün Sünikə getdiyi bəllidir.**

Fransa Bakıda keçiriləcək COP29 xüsusunda Qərbin start verdiyi anti-Azərbaycan kampaniyasına, bir növ, rəng qatmaqla məşğuldur. Söhbət ölkəmizin işğalçı qiyafəsində təqdimatından, indiki halda, əzazil obrazının yaradılmasından gedir.



Səfir özünün saxta sentimentallığı ilə hansı hədəfə vurduğunu çox gözəl bilir. O deyir ki, insanlar yaxınlarının məzarını, guya, Nerkin Handın bir hissəsi Azərbaycan tərəfindən işğala məruz qaldığı üçün ziyarət edə bilmirlər. Görəsən, Dekotini otuz ilə yaxın müddətdə Azərbaycana məxsus onlarca kəndin insanının bu acı aqibəti yaşadığını bilirmi? Əlbəttə ki, bilir…

Bəli, otuz illik işğal yaşantısının ən böyük sarsıntılarından biri azərbaycanlıların öz doğmalarının, əzizlərinin məzarlarını ziyarət edə bilməmələri olub. Səfir Dekotininin nəzərinə onu da çatdıraq ki, təsvir etdiyi səhnədən qat-qat acınacaqlı daha bir durum var – məzar yerini tapa bilməmək və ya qəbirləri təhqir olunmuş formada görmək. Azərbaycan xalqı bu aqibəti də yaşayıb. İşğal başa çatdıqdan sonra neçə-neçə vətəndaşımız təsvir etdiyimiz səhnənin məşəqqətinə qatlaşıb. Həqiqətən, çox böyük dərddir. Hərçənd nə səfir Dekotininin, nə də onun təmsil etdiyi ölkənin bunu anlamaq üçün nə istəyi var, nə də mədəniyyəti.

Rəsmi Paris Cənubi Qafqazla bağlı maraqlarını gerçəkləşdirmək niyyətindədir. Daha doğrusu, Fransa kollektiv Qərbin region xüsusundakı mənafelərinin reallaşması üçün çalışır və istəyir ki, öz marağı naminə ən həyasız metodları işə salmaq potensialında olduğunu göstərsin. Axı müasir Fransanın idarəçilik sisteminin üzqarası olan prezident Emmanuel Makron özünü başqa cür təsdiqləyə bilmir. Onu və administrasiyasının üzvlərini sadə ermənilərin düşdükləri durum qətiyyən maraqlandırmır, heç narahat da etmir.

*(ardı 6-cı səhifədə)*

# Sülhdən danışmağın nədir, ölkəyə silah daşımağın nə?!

**Ermənistan hakimiyyəti eyni vaxtda iki stulda oturmaq siyasətini davam etdirir. Rəsmi İrəvan bir tərəfdən Azərbaycanla sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında saziş layihəsinin imzalanması üçün danışıqlar aparır, digər tərəfdən isə ordusunu gücləndirir. Onun hazırlıq səviyyəsini və hərbi texniki təchizatını gücləndirir.**



Bir neçə gün öncə Hindistanın "The Times of India" qəzeti bildirmişdi ki, Ermənistan ABŞ və Fransa ilə birlikdə 2023-2024-cü maliyyə ilində Nyu–Dehlinin müdafiə məhsullarının ən böyük idxalçıları sırasındadır. Nəşrin yazdığına görə, Ermənistan son 4 ildə Hindistanla raketlər, artilleriya qurğuları, raket sistemləri, radarlar, zirehlər və gecəgörmə cihazları, eləcə də geniş çeşiddə döyüş sursatları və artilleriya mərmiləri almaq üçün bir neçə müqavilə bağlayıb. Üstəlik, Ermənistan Hindistan istehsalı olan "Akaş" hava hücumundan müdafiə raketlərinin ilk xarici alıcısı olub. Bu müqavilələrin bəziləri Ermənistanla Azərbaycan arasında münaqişə zamanı imzalanıb. Qəzet yazır ki, Hindistanın dövlət və özəl şirkətləri 100-ə yaxın ölkəyə geniş çeşiddə silah, sursat və komponentlər ixrac edir. Ötən il ərzində silah-sursat satışının həcmi 2,6 milyard dollar təşkil edib.

Bu istiqamətdə yayılan son məlumat da diqqəti cəlb edir. "Armenian Military Portal" yazır ki, Ermənistan parlamentinə ehtiyatda olan zabitlərin hərbi xidmətə qayıtmasına icazə verən qanun layihəsi təqdim edilib. "Hərbi xidmət və hərbi qulluqçuların statusu haqqında" qanuna dəyişikliklərin müəllifləri parlamentin müdafiə və təhlükəsizlik məsələləri daimi komissiyasının sədri Andranik Koçaryan və onun müavini Armen Xaçatryandır. Yeri gəlmişkən, qeyd edək ki, A.Koçaryan parlamentdəki hakim "Mülki müqavilə" fraksiyasının üzvüdür. O, İkinci Qarabağ müharibəsinin şəraitini araşdırmaq üzrə müvəqqəti parlament komissiyasının da rəhbəri olub.

*(ardı 5-ci səhifədə)*

# Azərbaycanda 3 "təmiz" enerji mərkəzi yaradılır



Səhifə ⇨ 9

# Aqrar inkişafın müasir su təminatı



Səhifə ⇨ 7

# Söz məbədgahı, sənət saxlancı



Səhifə ⇨ 10

# Prezident İlham Əliyev Bakıda komplektləşdirilən yeni nəsil metro qatarları ilə tanış olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin Bakıda komplektləşdirilən yeni nəsil metro qatarları ilə tanış olub.**

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov dövlətimizin başçısına qatarlar barədə məlumat verdilər.



Bildirildi ki, "Qlobalnıye Transportnıye Reşeniya" MMC ilə "Bakı Metropoliteni" QSC arasında bağlanmış müqaviləyə əsasən, 2024-2026-cı illər ərzində 65 yeni vaqonun (13 qatar tərkibi) istehsal edilərək Bakı metropoliteninə gətirilməsi nəzərdə tutulub. Həmin müqaviləyə uyğun olaraq, 2024-cü ildə 35 (7 qatar tərkibi), 2025-ci ildə 20 (4 qatar tərkibi), 2026-cı ildə isə 10 vaqon (2 qatar tərkibi) istehsal edilməlidir.

Diqqətə çatdırıldı ki, "81-765 Б/766 Б" seriyalı qatar tərkibi innovasiyalar baxımından 4-cü nəslə mənsubdur. Vaqonlar "Bakı Metropoliteni" QSC-nin texniki şərtlərinə uyğun istehsal olunub və yığılaraq komplektləşdirilməsi Bakı metropolitenində təşkil edilir. Vaqonların yığılması prosesi digər metropolitenlər üçün nəzərdə tutulmuş standart layihə əsasında deyil, Avropanın ən yüksək texnoloji tələblərə cavab verən aparıcı istehsalçılarının avadanlıq və sistemləri ilə aparılır. Bakı metropoliteninin mürəkkəb relyefi, texniki xüsusiyyətləri, paytaxtın iqlimi, geoloji şəraiti nəzərə alınmaqla avadanlıqların istismar müddətində yüksək təhlükəsizlik tələblərinə cavab verməsinə, etibarlılığına, uzunömürlülüyünə, istehsal zəmanətinə, səmərəliliyinə və digər üstünlüklərinə diqqət yetirilib. Bu xüsusda, Avropa istehsalçıları ilə 9 müqavilə imzalanaraq avadanlıqların birbaşa Bakıya gətirilməsi təmin edilib. Nəticədə vaqonların yüksək keyfiyyət standartları təmin edilməklə yığılmasının Bakıda tamamlanaraq xəttə buraxılması nəzərdə tutulub.

Vaqonların Bakıda yığılaraq komplektləşdirilməsi, sazlama, həmçinin sınaq işlərinin aparılması məqsədilə Bakı metropoliteninə istehsalçı şirkətin 54 nəfərdən ibarət heyəti ezam edilib. Yeni nəsil qatarların hər birinin baş vaqonları 315, orta vaqonları 329 sərnişin üçün hesablanıb. Baş vaqonlarda 38, orta vaqonlarda 44 oturacaq var. Vaqonların qapıları 1400 mm olmaqla əvvəlki nəsil vaqonlarla müqayisədə 12 faiz daha genişdir. Qatarlarda əlil arabaları, iri yüklər və uşaq arabaları üçün çoxfunksiyalı zonalar, mikroiqlim nəzarəti, videomüşahidə, interaktiv sərnişin məlumatlandırma sistemləri, mobil cihazlar üçün USB portlar, orijinal işıq qrafikası mövcuddur. Vaqonlar hermetik olduğuna görə səs-küysüzdür və istilik izolyasiyasına malikdir. Əvvəlki nəsil qatarlarla müqayisədə vaqondan-vaqona birbaşa keçidlər sərnişinlərin qatar boyunca hərəkətini təmin edir. Bakıya gətirilmiş 7 qatardan 5-nin yığılaraq komplektləşdirilməsi, sazlanması və sınaq işləri başa çatdırılıb. Daha 2 qatarın xəttə buraxılması noyabrın 8-nə qədər təmin ediləcək.

Dövlətimizin başçısı Bakıda komplektləşdirilən qatarların vaqonlarına baxdı.

Qeyd edildi ki, yeni qatarlar nəzərə alınmaqla, Bakı metropoliteninin vaqon parkında innovasiyalar baxımından sonuncu nəslə mənsub vaqonların ümumi sayı 150-yə çatdırılıb.

# Dövlət başçısı Zığ Elektrik Avtobus Parkında





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də Bakıda Zığ Elektrik Avtobus Parkının fəaliyyəti ilə tanış olub.**



Dövlətimizin başçısına burada Çin Xalq Respublikasının istehsalı olan elektrik mühərrikli "BYD" markalı avtobus və "TX5" markalı elektrik mühərrikli taksi nəqliyyat vasitələri təqdim edilib.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Prezident İlham Əliyevə görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Zığ Elektrik Avtobus Parkının ümumi ərazisi 5,4 hektardır. Tutumu 210 elektrik avtobusu olan parkın ərazisində 60 şarj stansiyası mövcuddur.

Hazırda avtobus parkı Çin Xalq Respublikasının istehsalı olan elektrik mühərrikli "BYD" markalı 160 avtobusdan ibarətdir.

Dövlətimizin başçısına avtobusların texniki göstəriciləri barədə məlumat verildi.

Diqqətə çatdırıldı ki, 2024-cü il istehsalı olan avtobusların istismar müddəti 15 il, sərnişin tutumu 83 nəfərdir. Nəqliyyat vasitəsinin uzunluğu 12 metrdən bir qədər çox, eni 2 metr yarım, hündürlüyü isə 3 metrdən artıqdır.

Avtobusların fəaliyyətini təmin edəcək 100 şarj cihazı "Luobinsen" şirkətinin istehsalıdır. Cihazların yükləyici gücü 320kW təşkil edir. Şarj cihazları həddindən artıq gərginlik, cərəyan, faza itkisi və digər çoxsaylı mühafizə funksiyalarına malikdir. Cihazlar şəhərin müxtəlif istiqamətlərində yerləşdiriləcək.

Eyni zamanda diqqətə çatdırıldı ki, elektrik mühərrikli "LEVC TX5" markalı plug-in hibrid taksilər İngiltərə növü olub Çin istehsalıdır. "Avro-6" standartlarına uyğun həmin avtomobillərin enerjidoldurma müddəti 30 dəqiqədir. Yalnız elektrik mühərriki ilə 130 kilometr, qoşulmuş benzin generator ilə isə 600 kilometr məsafə qət etmək imkanına malikdir. Avtomobil, həmçinin təcili əyləc, təkərlərin təzyiqinə nəzarət təchizatı, yol nişanlarını tanıma kimi müasir təhlükəsizlik sistemləri ilə təchiz olunub.

Avtobus parkında, həmçinin təmir mərkəzi, inzibati bina, transformator məntəqəsi, xidmət və texniki sahələr fəaliyyət göstərəcək. Marşrutların Monitorinq Mərkəzi isə avtobusların hərəkət marşrutlarını, qrafiklərini və sərnişin təhlükəsizliyini səmərəli şəkildə izləmək və idarə etmək üçündür. Burada gün ərzində 3 növbədə 24 saat xidmətin təşkil edilməsi və 83 nəfərin işlə təmin olunması nəzərdə tutulur.

Qeyd edək ki, hazırda karbon emissiyasının azaldılması qlobal hədəfə çevrilib. Azərbaycan da bu hədəfə çatmaq üçün prioritetlər müəyyənləşdirib. Yaşıl texnologiyalardan istifadə bu istiqamətdə atılan addımlardandır. "Eko bus" layihəsi isə yaşıl texnologiyalardan istifadənin genişləndirilməsi məqsədi daşıyır.

# Azərbaycan Prezidenti Albaniya səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də Albaniya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Besart Kadianın etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğulayaraq, Azərbaycan və Albaniya prezidentlərinin qarşılıqlı səfərlərinin və Albaniyanın Baş nazirinin ölkəmizə səfərinin əlaqələrimizin möhkəmləndirilməsi işinə töhfə verdiyini bildirdi. Azərbaycan Prezidenti Albaniyanın Baş nazirinin bir neçə gündən sonra COP29-da iştirak edəcəyini də vurğulayaraq, bütün bunların ölkələrimiz arasında yaxın tərəfdaşlıq əlaqələrini nümayiş etdirdiyini dedi. Ölkələrimizin beynəlxalq səviyyədə bir-birini həmişə dəstəklədiyini qeyd edən Prezident İlham Əliyev Azərbaycanın təmsil olunmadığı beynəlxalq təşkilatlarda Albaniya hökumətinin mövqeyimizi dəstəkləməsini yüksək qiymətləndirdi.

Səfir Albaniyanın Baş naziri Edi Ramanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Albaniyanın Baş nazirinə çatdırmağı xahiş etdi.

Besart Kadia Azərbaycanda səfir kimi fəaliyyətə başlamaqdan məmnunluğunu bildirərək, ölkələrimiz və xalqlarımız arasında dostluğun və mədəni əlaqələrin önəminə toxundu.

Diplomat Albaniyanın Azərbaycanın ərazi bütövlüyünə dəstəyini bir daha ifadə etdi.

COP29 tədbirinin əhəmiyyətini vurğulayan səfir bu cür genişmiqyaslı tədbirlə bağlı Azərbaycanda həyata keçirilən hazırlıq işlərinin dərin təəssürat hissi yaratdığını dedi.

Söhbət zamanı iqtisadi əməkdaşlığımızın enerji, nəqliyyat, ticarət, turizm və digər sahələri əhatə etməsindən məmnunluq ifadə olundu, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə ümidvarlıq bildirildi.

# Konqo səfiri etimadnaməsini Azərbaycan Prezidentinə təqdim edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də Konqo Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İvan Vanqu Nqimbinin etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ikitərəfli münasibətlərimizə müxtəlif istiqamətlərdə yeni təkan verilməsinin zəruriliyini qeyd edərək, siyasi əlaqələrin yaxşı səviyyəyə çatdığını, ticarət və iqtisadi sahələrdə isə görüləsi çox işlərin olduğunu dedi.

Dövlətimizin başçısı beynəlxalq təşkilatlar, ilk növbədə, BMT və Qoşulmama Hərəkatı çərçivəsində bu günə qədər ölkələrimiz arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini vurğuladı və bunun gələcəkdə də davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

Səfir, ilk növbədə, Konqo Demokratik Respublikasının Prezidenti Feliks Çisekedinin salamlarını və Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi ilə bağlı təbriklərini dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Konqo dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Səfir Azərbaycan ilə Konqo arasında təhsil, bank, maliyyə, mədənçilik, təhlükəsizlik sektorlarında və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxundu.

COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdıran səfir Konqo Demokratik Respublikasının Prezidentinin bu tədbirdə iştirak edəcəyini vurğuladı.

Prezident İlham Əliyev Konqo Prezidentinin COP29 tədbirində iştirak edəcəyindən məmnunluğunu bildirdi.

# Prezident İlham Əliyev Banqladeş səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də Banqladeş Xalq Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Amanul Haqın etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Banqladeş arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsinin zəruriliyini vurğulayaraq, siyasi əlaqələrimizin, eləcə də iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən ticarət, investisiya və digər istiqamətlərdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi.

Prezident İlham Əliyev beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin bir-birini dəstəkləməsinin önəmini qeyd etdi.

Səfir Banqladeş Xalq Respublikasının Prezidenti Məhəmməd Şahabuddinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Banqladeş dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı əvvəllər Banqladeş Prezidenti ilə təmaslarını xatırlayaraq Məhəmməd Şahabuddinin COP29-da iştirak edəcəyini məmnunluqla vurğuladı, ona fəaliyyətində uğurlar arzuladı.

Amanul Haq ikitərəfli münasibətlərlə bağlı xoş sözlərə görə dövlətimizin başçısına minnətdarlığını ifadə etdi.

COP29-un əhəmiyyətinə toxunan səfir bu tədbirdə Prezident səviyyəsində təmsil olunacaqlarından məmnunluqlarını bildirdi.

# Ruanda səfiri etimadnaməsini dövlət başçımıza təqdim edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də Ruanda Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Çarlz Kayonqanın etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsinin, ticarət, investisiya, insanlar arasında əlaqələr və digər sahələrdə əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsinin önəminə toxundu.

Prezident İlham Əliyev BMT, Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

COP29-da Ruanda Prezidentinin iştirak edəcəyindən məmnunluğunu ifadə edən dövlətimizin başçısı bu tədbirin önəminə toxundu, onun iqlim dəyişmələri ilə bağlı qlobal səviyyədə müzakirələrin aparılması baxımından əhəmiyyətini vurğuladı və Azərbaycanın bu sahədə fəal iştirak etdiyini dedi.

Çarlz Kayonqa Ruanda Respublikasının Prezidenti Pol Kaqamenin salamlarını dövlətimizin başçısına çatdırdı və qeyd etdi ki, ölkəsinin Prezidenti COP29-da iştirakını səbirsizliklə gözləyir. Səfir vurğuladı ki, Ruanda Prezidenti ona Azərbaycan ilə əlaqələrə böyük önəm verdiyini deyib və ölkələrimizin bir-birindən uzaqda yerləşməsinə baxmayaraq, əməkdaşlıq üçün yaxşı imkanların olduğunu vurğulayıb.

Prezident İlham Əliyev salamlara və xoş sözlərə görə minnətdarlığını bildirdi, onun da salamlarını Ruanda dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Azərbaycan Prezidentinin ikitərəfli münasibətlərə dair söylədiyi fikirlərə görə minnətdarlığını bildirən səfir əlaqələrimizin genişlənməsi üçün səylərini əsirgəməyəcəyini dedi.

Görüşdə ölkələrimiz arasında iqtisadiyyat, ticarət, humanitar, elm və təhsil sahələrində əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

*AZƏRTAC*

# İspaniya Hökumətinin Sədri Zati-aliləri cənab Pedro Sançezə

**Hörmətli cənab Sədr!**

Valensiya regionunda baş vermiş güclü daşqınlar nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər bizi olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İspaniya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyir, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 31 oktyabr 2024-cü il**

# Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafında xidmətləri olan bir qrup şəxsin təltif edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafında xidmətləri olan aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Dünyamalıyev Mətləb Məmməd oğlu
Əmirbəyova Jalə Əhməd qızı
Fətullayev İslam Babakişi oğlu
Hüseynov Namiq Tapdıq oğlu
Mahmudov Abdullah İlyas oğlu
Məmmədov Sahib Nizaməddin oğlu
Nəbiyev Feyzulla Sovetxan oğlu
Şəmmədov Elşad Zeynal oğlu

**"Tərəqqi" medalı ilə**

Abbasov İbrahim Yusif oğlu
Ağayev Lətif Xudaş oğlu
Bayramova Gülyanə Fərrux qızı
Dünyamalıyev Sevindik Əbil oğlu
Əhmədov Ağa Balaseyid oğlu
Əsgərov Məhərrəm Əsgər oğlu
Əsgərov Səməddin Calal oğlu
Əzizov Əlisultan Əlheydər oğlu
Fətəliyev Məhəmməd Qoca oğlu
Hacıyev Etiram Qabil oğlu
Hacıyev Mahir Həmzə oğlu
Həsənov Arif Bahadur oğlu
Hüseyinov Həsənağa Allahverdi oğlu
Xəlilov Həmzə Ağakişi oğlu
İsmayılova Səadət Əmir qızı
Qəhrəmanov Canpolad Kamayıl oğlu
Quliyeva Yeganə Arif qızı
Qurbanov Abdulqafur Abdulrəhman oğlu
Məmmədov Anar Vidadi oğlu
Məmmədov Habil Axunbala oğlu
Məmmədov Hafiz İsa oğlu
Məmmədov Nəvai Şahin oğlu
Məmmədova Mətanət Zaman qızı
Səlimov Vüqar Süleyman oğlu
Tağıyev Yaqub İslam oğlu
Talıbov İzzət Ataxan oğlu
Yusifov Mehdi Mehman oğlu
Yusifova Elza Sədi qızı
Zahirov Beydullah İslam oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 31 oktyabr 2024-cü il**

# Birləşmiş Krallıqla alternativ enerji əməkdaşlığı

**Oktyabrın 31-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Birləşmiş Krallığın Avropa, Şimali Amerika və dənizaşırı ərazilər üzrə dövlət naziri Stiven Dauti arasında telefon danışığı olub.**

Tərəflər Azərbaycanla Birləşmiş Krallıq arasında xüsusilə energetika, təhsil, qarşılıqlı investisiyalar və digər sahələrdə əməkdaşlıqdan məmnunluq ifadə edərək, iki ölkə arasında son vaxtlar siyasi dialoqun intensivləşməsinin, qarşılıqlı səfərlərin, eləcə də hökumətlərarası əməkdaşlıq komissiyalarının işinin bərpasının yeni sahələr üzrə əməkdaşlığın inkişafına təkan verəcəyini bildiriblər.

Nazir Ceyhun Bayramov müqabil tərəfi Azərbaycanın bölgəmizdə dayanıqlı sülhün təsis edilməsi üzrə baxışları, bu istiqamətdə atılan praktik addımlar, habelə Ermənistanla sülh prosesi barədə ətraflı məlumatlandırıb. Azərbaycan tərəfinin təşəbbüskarı olduğu sülh sazişi üzrə danışıqlar prosesində ciddi irəliləyişin olduğu, ümumilikdə layihənin razılaşdırılması üzrə iş aparıldığı, eyni zamanda, Ermənistan Konstitusiyasında ölkəmizə qarşı olan ərazi iddialarının prosesdə əsas maneə təşkil etdiyi diqqətə çatdırılıb.

Söhbət zamanı, iki ölkə arasında alternativ enerji sahəsində əməkdaşlığın müxtəlif istiqamətləri, SOCAR və BP arasında günəş enerjisinin istehsalı üzrə aparılan işlər, eləcə də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq məsələləri müzakirə olunub.

*XQ*

# COP29 ilə əlaqədar Təşkilat Komitəsinin 8-ci iclası




**Oktyabrın 31-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin 8-ci iclası olub.**

Prezident Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev artıq COP29-a sayılı günlərin qaldığını qeyd edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq sonuncu iclasdan ötən dövr ərzində COP29-a ciddi hazırlıq prosesinin daha da sürətləndirildiyini və yekunlaşmaqda olduğunu vurğulayıb. Samir Nuriyev Prezident İlham Əliyevin oktyabrın 17-də Bakı Olimpiya Stadionunda aparılan genişmiqyaslı hazırlıq işləri ilə növbəti dəfə tanış olaraq tapşırıq və göstərişlər verdiyini nəzərə çatdırıb.

Təşkilat Komitəsinin sədri Azərbaycana və Prezident İlham Əliyevə hörmətin bariz nümunəsi olaraq COP29 Liderlər Sammitində 100-dən artıq dövlət və hökumət başçısının, vitse-prezidentlərin iştirakının gözlənildiyini bildirib.

Samir Nuriyev əlavə edib ki, COP29-da iştirak üçün BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyi vasitəsilə 50 mindən artıq şəxs qeydiyyatdan keçib və bu proses davam etdiyi üçün say daha da artacaq.

Təşkilat Komitəsinin sədri bildirib ki, Prezident İlham Əliyev oktyabrın 10-11-də Bakıda keçirilmiş Pre-COP29 tədbirinə ünvanladığı müraciətində COP29-da yeni iqlim maliyyəsi hədəfi ilə bağlı razılaşmaya nail olunmasının vacibliyini vurğulayaraq, "Bakı Sazişi"nin əldə edilməsinin beynəlxalq ictimaiyyətin ümumi nailiyyəti kimi tarixə düşəcəyinə inamını ifadə edib. Bu xüsusda, Samir Nuriyev deyib ki, Azərbaycan tərəfinin xarici tərəfdaşlarla təmasları zamanı COP29-da uğurlu nəticələrin əldə edilməsi imkanlarının daha da artdığı aydın hiss olunur.

Prezident Administrasiyasının rəhbəri COP29 zamanı Bakıda nəqliyyatın planlı şəkildə təşkil olunması ilə bağlı hazırlanmış Nəqliyyat Planının icrasının təmin edilməsinin vacibliyini vurğulayıb.

Samir Nuriyev, eyni zamanda, Bakı Olimpiya Stadionunda yekunlaşmaqda olan hazırlıq işləri, dövlət qurumları tərəfindən beynəlxalq tərəfdaşlarla birlikdə təşkil ediləcək tədbirlər və digər məsələlər barədə danışıb.

Təşkilat Komitəsinin sədri xarici medianın və qeyri-hökumət təşkilatlarının da COP29-da iştiraka böyük maraq göstərdiyini bildirib.

Ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş Prezidenti Muxtar Babayev Beynəlxalq Valyuta Fondu və Dünya Bankı Qrupunun illik sessiyası və hazırda Kolumbiyada işini davam etdirən BMT-nin "Bioloji Müxtəliflik haqqında" Konvensiyasına Tərəflərin Konfransı da daxil olmaqla, COP29-la bağlı ümumi gedişat barədə danışıb.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev media-kommunikasiya sahəsində həyata keçirilən fəaliyyət və vətəndaş cəmiyyətinin COP29-a töhfəsi ilə bağlı çıxış edib.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov Bakı Olimpiya Stadionunda görülən işlər, paytaxtda keçirilən nəqliyyat monitorinqləri və digər təşkilati-logistika məsələləri barədə danışıb.

Xarici işlər naziri Ceyhun Bayramov COP29 zamanı qəbul edilməsi nəzərdə tutulan mühüm sənədlər, xüsusilə yeni iqlim maliyyəsi hədəfi ətrafında son vəziyyət barədə çıxış edib.

Energetika naziri Pərviz Şahbazov Azərbaycanda yaşıl enerji sahəsində həyata keçirilən işlər, Energetika Nazirliyinin xətti ilə COP29 zamanı təşkil edilməsi nəzərdə tutulan tədbirlər barədə danışıb.

Milli Məclisin deputatı, COP29-un İqlim dəyişmələri üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarai Bakı İqlim Həftəsi və keçirilən digər tədbirlərlə bağlı məlumat verib.



Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov COP29-un təşkili prosesində miqrasiya idarəçiliyi barədə danışıb.

Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi İlqar Musayev COP29 zamanı informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində aparılan işlər barədə məlumat verib.

COP29-un Gənc iqlim çempionu Leyla Həsənova gənclərin iqlim fəaliyyətində iştirakı sahəsində görülən işlər barədə danışıb.

İclasda Bakı Olimpiya Stadionunda hazırlıq işlərinin son vəziyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

İclasın sonunda Təşkilat Komitəsinin sədri Samir Nuriyev Azərbaycanın COP29-da Prezident İlham Əliyevin rəhbərliyi ilə növbəti tarixi uğuruna imza atacağına əminliyini ifadə edib, COP29 Tədbirlər Planının icrasının davam etdirilməsi və digər aidiyyəti məsələlər üzrə tapşırıqlar verib.

*AZƏRTAC*

# Bakının Xətai rayonunda körpələr evi-uşaq bağçasının açılışı





**Oktyabrın 31-də Bakının Xətai rayonundakı Alim Məmmədov adına körpələr evi-uşaq bağçası təmirdən sonra yenidən istifadəyə verilib.**

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və ailə üzvləri bağçada yaradılmış şəraitlə tanış olublar.

Uşaq bağçasının direktoru Liya Məcidova Birinci vitse-prezidentə və ailə üzvlərinə bağçada görülən işlər barədə məlumat verib.

Bildirilib ki, 1958-ci ildə inşa olunan Alim Məmmədov adına körpələr evi-uşaq bağçası ötən müddətdə istismara yararsız vəziyyətə düşdüyünə görə təmirə ehtiyac yaranmışdı. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən, körpələr evi-uşaq bağçası müasir tələblər səviyyəsində təmir olunub.

Yüz yerlik körpələr evi-uşaq bağçası zəruri avadanlıq və ləvazimatlarla təmin olunub. Bu məktəbəqədər müəssisədə uşaqlar 5 qrup üzrə təhsil alırlar.

Bağçanın həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri görülüb, uşaqlar üçün oyun meydançası yaradılıb.

Qeyd edək ki, ölkəmizdə uşaqların sosial müdafiəsinin gücləndirilməsinə, onların sağlam və xoşbəxt böyümələrinə xüsusi qayğı göstərilir. Uşaq bağçalarının yenidən qurulması ilə bağlı həyata keçirilən layihələr bu baxımdan mühüm rol oynayır.

Uşaqların təlim-tərbiyəsi Heydər Əliyev Fondunun fəaliyyətinin əsas istiqamətlərindən biridir. Fondun həyata keçirdiyi layihələr məktəbəqədər təlim-tərbiyə müəssisələrinin inkişafına, bu sahədə ciddi keyfiyyət dəyişikliyinə səbəb olub. Gələcəyimiz olan uşaqların sosial rifahının yaxşılaşdırılmasına hesablanan belə tədbirlər ölkəmizdə aparılan siyasətin uğurlu və məntiqi nəticəsidir.

# Milli Məclis sədri Pakistan və Çexiya səfirləri ilə görüşüb

**Milli Məclisin sədri Sahibə Qafarova oktyabrın 31-də Pakistanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Qasim Mohiuddinlə görüşüb.**



Milli Məclisin sədri həm Azərbaycan torpaqlarının 30 illik işğalı dövründə, həm də ərazi bütövlüyümüzün təmin olunması zamanı ölkəmizə beynəlxalq arenada verdiyi daimi dəstəyə görə Pakistana və onun parlamentinə təşəkkürünü bildirib. O, Azərbaycanın da həmişə Pakistanın yanında olduğunu və Kəşmir probleminin BMT-nin qəbul etdiyi qətnamələr əsasında həllini dəstəklədiyini bir daha diqqətə çatdırıb.

Söhbət zamanı ikitərəfli münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin rolu yüksək qiymətləndirilib, parlament rəhbərlərinin qarşılıqlı rəsmi və işgüzar səfərlərinin, müntəzəm təmaslarının, eləcə də deputatlarımızın beynəlxalq parlament qurumları çərçivəsində əməkdaşlığının əhəmiyyəti vurğulanıb.

Görüşdə Azərbaycanda keçiriləcək COP29-a hazırlıq işləri barədə də danışılıb. Ölkəmizin iqlim dəyişiklikləri kimi qlobal problemlərin həlli istiqamətindəki səylərini yüksək qiymətləndirən səfiri Qasim Mohiuddin COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırıb, Pakistanın tədbirdə yüksək səviyyədə təmsil olunacağını deyib, bu görüşün iqlim dəyişikliyi ilə bağlı qlobal müzakirələri gücləndirəcəyinə inandığını ifadə edib.

***

Milli Məclisin sədri Sahibə Qafarova həmin gün Çex Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Milan Sedlaçeklə görüşüb.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əməkdaşlıq əlaqələrinin siyasi, iqtisadi və humanitar aspektləri müzakirə edilib, ikitərəfli münasibətlərin inkişafında qarşılıqlı səfərlərin, o cümlədən parlament sədrləri və dostluq qrupları səviyyəsində təmasların əhəmiyyəti vurğulanıb. Sahibə Qafarova parlamentlərarası əlaqələrin dövlətlərarası münasibətlərin inkişafında mühüm rolunu qeyd edərək, deputatlarımızın beynəlxalq təşkilatlar çərçivəsində birgə fəaliyyətinin və qarşılıqlı dəstəyinin mühüm olduğunu vurğulayıb, parlamentlərarası əlaqələrdə obyektiv məlumatların paylaşılması baxımından qarşılıqlı məlumatlandırmanın genişləndirilməsinin əhəmiyyətini diqqətə çatdırıb.

Səfir Milan Sedlaçek ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən qanunverici orqanlar arasında əməkdaşlıqdan məmnun olduğunu, bu əlaqələrin davam etdiriləcəyinə əminliyini bildirib. COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdıran səfir Çexiyanın bu tədbirdə yüksək səviyyədə təmsil olunacağını bildirib.

***XQ***

# XİN-dən Fransanın Ermənistandakı səfirinə cavab

**“Elementar diplomatik etiket qaydalarına əməl etməyi bacarmayan Fransanın Ermənistandakı səfiri Olivye Dekotinyinin Ermənistan-Fransa münasibətlərindən daha çox Azərbaycan əleyhinə qarayaxma kampaniyasına köklənməsi ilk növbədə Fransa xarici siyasətinin uğursuzluğunun nəticəsidir”.**

Bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Fransanın Ermənistandakı səfiri Olivye Dekotinyinin “Hetq” media qurumuna müsahibəsində Azərbaycan əleyhinə səsləndirdiyi əsassız iddialar barədə yerli medianın sualına cavabında deyib.

“Müsahibədə Azərbaycan ərazisində işğala və separatçılığa son qoyan tədbirlərin hədəf alınması, Beynəlxalq Ədalət Məhkəməsinin qərarlarına yanlış istinadlar, Ermənistanın “yarımçıq sülh” fikirlərini dəstəkləyən açıqlamalar və bir sıra digər absurd yanaşmalar ilk növbədə Fransa tərəfinin reallıqları necə təhrif etdiyini, bölgədə dayanıqlı və həqiqi sülh quruculuğunda maraqlı olmadığını bir daha nümayiş etdirir”, – A. Hacızadə bildirib.

A.Hacızadənin sözlərinə görə, Fransanın bölgədə eskalasiyanı davam etdirməyə yönələn davranışları və təxribatları bu ölkənin həm münaqişə, həm də postmünaqişə dövründə güddüyü niyyətin və apardığı siyasətin əsl mahiyyətini sübut edib.

***XQ***

# Birinci vitse-prezident Talassemiya Mərkəzində





**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və ailə üzvləri oktyabrın 31-də Talassemiya Mərkəzində olublar.**

Səhiyyə naziri Teymur Musayev Birinci vitse-prezidentə və ailə üzvlərinə Mərkəzdə yaradılan şərait barədə məlumat verdi.

Mehriban Əliyeva tibb müəssisəsindəki transplantologiya şöbəsində, yeni açılan reanimasiya şöbəsində və böyüklər üçün stasionar şöbədə olub, burada müalicə alan uşaqlarla, tibb işçiləri ilə söhbət edib, müalicə prosesinin gedişi ilə maraqlanıb.

Birinci vitse-prezidentə məlumat verildi ki, Talassemiya Mərkəzi bu xəstəliyə düçar olanların müalicəsində mühüm rol oynamaqla yanaşı, həm də xəstələrə və onların ailələrinə mənəvi baxımdan böyük dəstəkdir.

Mehriban Əliyeva Heydər Əliyev Fondunun Mərkəzin fəaliyyətinə və ümumiyyətlə, səhiyyəyə daim önəm verdiyini bildirib.

Qeyd edək ki, tibb müəssisəsində görülən işlər, aparılan islahatlar, burada müalicə alan xəstələrin səhhəti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən daim diqqət mərkəzində saxlanılır. Fondun “Talassemiyasız həyat naminə” proqramı çərçivəsində inşa edilən Talassemiya Mərkəzində xəstələrə göstərilən tibbi xidmətin təkmilləşdirilməsi, Mərkəzin maddi-texniki bazasının gücləndirilməsi üçün görülən tədbirlər talassemiya xəstəliyinin profilaktikasında əhəmiyyətli rol oynayır.

Xatırladaq ki, 2009-cu ildən istifadəyə verilən Talassemiya Mərkəzi Azərbaycanda ixtisaslaşdırılmış tibb ocağının və qan bankının yaradılmasına, talassemiyadan əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qanla təmin olunması üçün könüllü donor xidmətinin inkişaf etdirilməsinə, talassemiyanın yayılmasının qarşısının alınması istiqamətində əhalinin maarifləndirilməsinə və talassemiya ilə mübarizə aparan bir sıra dövlətlərlə əməkdaşlığın genişləndirilməsinə xidmət edir.

# Mehriban Əliyeva Azərbaycan Dövlət Pantomim Teatrında



**Dünən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və ailə üzvləri Azərbaycan Dövlət Pantomim Teatrının binasında mövcud vəziyyətlə tanış olublar.**



Mədəniyyət naziri Adil Kərimli Birinci vitse-prezident Mehriban Əliyevaya və ailə üzvlərinə teatr haqqında məlumat verdi.

Bildirildi ki, respublikamızın tanınmış teatr kollektivlərindən olan Azərbaycan Dövlət Pantomim Teatrı 1994-cü ildə teatr-studiya kimi yaradılıb. Studiya altı il müddətində Gənc Tamaşaçılar Teatrının nəzdində fəaliyyət göstərib. 2000-ci il martın 6-da kollektivə dövlət statusu verilib. 2005-ci ildən isə Azərbaycan Dövlət Pantomim Teatrı keçmiş “Şəfəq” kinoteatrının binasında yerləşdirilib.

Otuz ildən artıq dövrdə Pantomim Teatrında bir çox müəlliflərin əsərləri səhnələşdirilib. Teatrın bu növünün əsas üstünlüklərindən biri onun üçün dil baryerinin olmamasıdır. Ötən müddət ərzində kollektiv Almaniya, Avstriya, Bolqarıstan, İsveçrə, Gürcüstan, Qazaxıstan, Mərakeş, Rusiya və digər ölkələrdə Azərbaycan mədəniyyətini uğurla təmsil edib.

Bu gün Pantomim Teatrı ən çox ziyarət olunan və böyük tamaşaçı məhəbbəti qazanan mədəniyyət ocaqlarımızdan biridir.

Qeyd edildi ki, Azərbaycan Dövlət Pantomim Teatrının hazırda yerləşdiyi bina 1900-cü ildə inşa olunub və yerli əhəmiyyətli memarlıq abidələri siyahısındadır.

Mövcud vəziyyətlə tanışlıq zamanı binada görülməli olan zəruri təmir işləri barədə də məlumat verildi.

# “Paris Paşinyanı “pat” vəziyyətinə salır”

## *Fransanın Qafqaz siyasəti bütün sərhədləri aşmaqdadır*

**Fransanın Ermənistandakı səfiri Olivye Dekotini hayların “Hetq” nəşrinə müsahibə verib. Oxucuların diqqətini onun Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması ilə bağlı dediklərinə yönəldəcəyik. Dekotini müsahibədə özünü, bir növ, “qırğı-diplomat” kimi aparır və o, bu “qabiliyyətini” akkreditə olunduğu ölkəyə deyil, Azərbaycana münasibətdə nümayiş etdirir. Rəsmi Parisin Ermənistan–Azərbaycan münaqişəsi ilə bağlı mübahisə doğuran, hətta cəfəng fikirlərini məhz İrəvandakı elçisinin dilindən səsləndirməsi adi hala çevrilib. Səfirin budəfəki açıqlamaları ilə bağlı suallarımızı Cənubi Qafqaz Araşdırmaları Mərkəzinin rəhbəri, politoloq Fərhad Məmmədov cavablandırdı. Politoloq əvvəlcə diqqəti səfir Olivye Dekotinin sülh sazişi ilə bağlı açıqlamasına yönəltdi:**



– Dekotini deyir: “Hesab edirəm ki, sülh sazişinin imzalanması zəruridir. Dəfələrlə, o cümlədən Ermənistan baş naziri tərəfindən bəyan edilib ki, sazişin böyük hissəsi artıq razılaşdırılıb. Yəni, baş nazir artıq razılaşdırılmış məsələni imzalamağa hazır olduğunu bildirib. Sazişin sona qədər həll olunmamış məsələlərin müzakirəsi sonrakı mərhələdə mümkündür”. İndi Fransa belə danışır... Kazanda Azərbaycan və Ermənistan liderləri arasında danışıqlarda irəliləyiş əldə olunacağına ümid yaranan kimi xarici aktorların bu məsələdə nə dərəcədə maraqlı olduğunu anlamağa çalışdım... Bu zaman qarşımıza belə bir mənzərə çıxdı: ABŞ ilin sonuna qədər sülh müqaviləsinin bağlanmasında və kommunikasiyaların açılmasında maraqlıdır. ABŞ Prezidenti bu barədə Bakıya göndərdiyi məktubunda yazdı. Rusiya Sergey Lavrovun dili ilə sülh müqaviləsi mövzusunda danışarkən Ermənistan ərazisində onların iştirakı ilə nəqliyyat qovşağının açılmasına diqqət yetirdi. İran sərhəddə irəliləyişdə bir şərtlə maraqlıdır ki, “sərhədlər dəyişməsin”. Türkiyə danışıqlar prosesinin bütün istiqamətlərini dəstəkləyir. Çünki Ankara Ermənistanla münasibətlərini hər üç istiqamətdə müəyyən edir. Yalnız Fransa qalmışdı. İndi də bu ölkənin mövqeyini Ermənistandakı səfiri açıqladı.

**– Kollektiv Qərbin COP29 mövzusu ilə manipulyasiya etdiyi məlumdur. Bu yolla Bakını tezliklə İrəvanla sülh müqaviləsini imzalamağa məcbur etməyə çalışır. Sanki, Qərb bunu bacaracağını, Bakının indi hər şeyə hazır olduğunu düşünür...**

– Etiraf etməliyik ki, səfirin açıqlaması BRICS-in Kazan görüşündən sonra Parisin tutduğu mövqeyin ortaya qoyulmasıdır. İndi gəlin baxaq görək Fransa Azərbaycan və Ermənistan arasında doğrudanmı sülhün əldə olunmasını istəyir? Əsas mövzu isə sülh müqaviləsinin imzalanması üçün göstərilən müddətdir. Bunu səfir Dekotini müsahibəsində belə izhar edir: “Hesab edirəm ki, iki ölkə arasında sülh sazişinin imzalanması zəruridir. Bu barədə dəfələrlə, o cümlədən Ermənistan baş naziri tərəfindən bəyan edilib ki, sazişin mətninin böyük hissəsi artıq razılaşdırılıb. Ermənistan baş naziri artıq razılaşdırılmış müddəalar üzrə sazişi imzalamağa hazır olduğunu bildirib. Həll olunmamış məsələlərin müzakirəsi isə sonrakı mərhələdə mümkündür. Xüsusilə, COP29-un təşkilatçısı kimi Azərbaycanın üzərinə ayrıca məsuliyyət düşür. İndiki mərhələdə Bakının əsas məsuliyyəti İrəvanla sülh sazişi bağlamaqdır. Artıq sülh müqaviləsi üçün şərait yaradılıb və mümkün qədər tez bağlanmalıdır. Bu o deməkdir ki, sülhə saatlar qalıb”. Deyə bilərik ki, Paris Bakının COP29 mövzusuna həssaslığına ümid edərək Ermənistanı sülhə tez çatdırmağa, belə demək mümkünsə, “sudan quru çıxarmağa” çalışır. Bununla belə, burada Fransa səfirinin sözlərini ABŞ Prezidenti Cozef Baydenin Bakıya məlum məktubu ilə müqayisə etməliyik: əgər rəsmi Vaşinqton BMT-nin iqlim sammitindən əvvəl iki ölkə arasında razılaşma imkanından qismən imtina edibsə, maksimalist Paris sülh sazişinin imzalanmasının son tarixini - COP29-a qədər təyin etməyi öz vəzifəsi hesab edir. Fikrimizcə, burada əlavə şərhə ehtiyac yoxdur.

**– Dekotini Avropa İttifaqının Ermənistandakı mülki missiyasının “effektiv fəaliyyətindən” də danışıb...**

– Bəli, səfirin bununla bağlı dedikləri maraq və sual doğurur. O, deyir ki, “Fransa Aİ-dəki tərəfdaşları ilə birlikdə Ermənistandakı mülki missiyanı genişləndirməkdə israrlıdır. Bu missiyanın heyəti, demək olar ki, iki dəfə artırılır, imkanları genişləndirilir... Yəni, monitorinqçilərin sayının təxminən iki dəfə – bir neçə yüz nəfərə qədər artırılması planlaşdırılır. Onlar son dərəcə təsirli olurlar. Son illərə nəzər salsanız görərsiniz ki, sadəcə “Google” ilə “silahlanmış” avropalı müşahidəçilər – onlar silahlı deyil, mülki şəxslərdir – bu regionun sabitliyi üçün Dağlıq Qarabağdakı (?) Rusiya hərbi kontingentindən daha çox iş görüb”. Deməli, Fransa sərhədlərin delimitasiyası ilə bağlı irəliləyişlərə baxmayaraq, Aİ-nin Ermənistandakı missiyasını artırmağa hazırlaşır. Burada məntiqi sual yaranır: əgər iki ölkə arasında sərhədin müəyyənləşdirilməsi prosesi normal tempdə davam edirsə, Aİ-nin missiyasının sayını artırmağa, hətta onun səlahiyyət müddətini uzatmağa nə ehtiyac var?!

**– Fransanın Ermənistandakı səfiri müsahibəsində Qarabağ ermənilərinin geri qayıdışı mövzusuna da toxunub...**

– Onun bu mövzuda dedikləri nə siyasi məntiqə, nə də beynəlxalq hüquqa sığır: “Dağlıq Qarabağın, (?) demək olar ki, bütün erməni əhalisi qaçmağa məcbur olub. Mən “məcbur olub” deyirəm, çünki bu, könüllü qərar deyildi. Doqquz aylıq mühasirə və amansız hərbi hücumdan sonra bu qərar könüllü ola bilməzdi. Onlar həssas insanlardır və hələ də dəstəyə ehtiyacları var. Bu, o demək deyil ki, biz onların geri qayıtmaq hüququndan imtina edəcəyik. Onların geri qayıtmaq hüququ rəy deyil, öhdəlikdir. Beynəlxalq Ədalət Məhkəməsinin 17 noyabr 2023-cü il tarixli qərarı, Azərbaycan da daxil olmaqla, BMT üzvü olan bütün dövlətlər üçün məcburidir. Əlbəttə, qaçqınların özləri də bilirlər ki, indi geri qayıtmaq üçün şərait yoxdur. Bunun Ermənistan hökuməti ilə fərqi varmı? Məncə, yoxdur. Birincisi, biz Ermənistan hökumətinin həmin qaçqınları qəbul etmək və cəmiyyətə inteqrasiya səylərini dəstəkləyirik. İkincisi, Beynəlxalq Ədalət Məhkəməsinin qərarı Ermənistan hökumətinin təşəbbüsü ilə həyata keçirilib”. Bu məsələdə Fransanın mövqeyi məlumdur və hər şey başadüşüləndir. Bəli, Qarabağ erməniləri mövzusunu Ermənistan hökuməti özü üçün bağlasa belə, Paris bu məsələni gündəmdən çıxarmayacaq! Buradan belə bir nəticəyə gəlmək olar ki, Fransa Ermənistanla Azərbaycan arasında sülh danışıqları prosesinin normal məcrada davamında qətiyyən maraqlı deyil. Bəs Ermənistan hökuməti bununla bağlı nə etməlidir?! Axı, Paris artıq təkəbbür mərhələsinə keçən Cənubi Qafqaz siyasəti ilə Paşinyanı dalana dirəyir, onu “pat” vəziyyətinə salır. Tutaq ki, Bakı bu çağırışa məhəl qoymadı, onda necə olacaq? Nəyə görə səfir Bakının COP29-a qədər sülh sazişini imzalamaqdan imtina edərsə, Parisin hansı addımları atacağından danışmayıb? Yəni, Fransa son dörd ildə ölkəmizə qarşı elədiklərindən başqa daha hansı pis işləri görməyə hazırlaşır? Yelisey sarayının bütün addımlarını izləyirik. Bu ölkə Ermənistanı silahlandırır, onu revanşa hazırlayır. Ən təhlükəlisi də məhz budur. Onun sülh sazişinin nə vaxt, harada və hansı şərtlərlə imzalamasından asılı olmayaraq bu siyasətini davam etdirəcəyinə qətiyyən şübhəniz olmasın.

* * *

COP29-un ölkəmizdə keçirilməsinə dair razılaşma beynəlxalq ictimaiyyət tərəfindən sülh prosesinə dair hər hansı öhdəliklə əlaqələndirilməyib. Beləliklə, biz adi manipulyasiya ilə üzləşmişik. Parisin cəfəng və faydasız manipulyasiyası ilə...

*Qələmə aldı:*
***İmran BƏDİRXANLI***
***XQ***

# Sülhdən danışmağın nədir, ölkəyə silah daşımağın nə?!

**(əvvəli 1-ci səhifədə)**

A.Xaçatryan komissiyanın oktyabrın 30-da keçirilən iclasında bildirib ki, məqsəd təcrübəli və ixtisaslı hərbçi kadrların fəaliyyətdə olan hərbi hissələrə cəlb edilməsidir. Eyni zamanda, deyib ki, yenidən hərbi xidmətə cəlb ediləcək ehtiyatda olan şəxlər pensiya hüququndan məhrum olunmayacaqlar. Ermənistan dövləti onlara xidmət illərinə görə pensiya verməkdə davam edəcək.

Qanunun müdafiə və təhlükəsizlik məsələləri daimi komissiyası tərəfindən təsdiqindən sonra parlamentin növbədənkənar plenar iclasında müzakirəyə çıxarılaraq qəbul edilməsi planlaşdırılırdı.

Xaçatryan ehtiyatda olan zabitlərin sayını məlum səbəblərdən açıqlamasa da, bu ideyanın həyata keçirilməsinin ordunun şəxsi heyəti ilə bağlı vəziyyəti xeyli yaxşılaşdıracağına əminliyini ifadə edib.

Müdafiə nazirinin müavini Arman Sarkisyan isə bildirib ki, zabit korpusuna polkovnik və polkovnik-leytenant rütbəsinə qədər təcrübəli zabitlərin cəlb edilməsi planlaşdırılır. Onun sözlərinə görə, əsas kadr çatışmazlığı tağım, bölük və tabor (batalyon) komandirləri səviyyələrində müşahidə olunur.

Dünən yayılan məlumatda isə Ermənistan parlamentinin məsələni tələm-tələsik səsverməyə çıxararaq yekdilliklə qəbul etdirdiyi bildirilib.

Bu arada “Indian Defense Research Wing” nəşri İrəvanın Hindistanın köməyi ilə hava hücumundan müdafiəni gücləndirməyə çalışdığı və Nyu–Dehli ilə dörd ədəd “Su-30SM” qırıcı təyyarəsinin modernləşdirilməsinə dair danışıqlar apardığı barədə məlumat yayıb. Qeyd edilib ki, söhbət 2018-ci ildə Rusiyadan alınmış qırıcı təyyarələrdən gedir. Planın məqsədi Rusiyanın “Su-30SM”ni Hindistan “Super-30” konfiqurasiyası səviyyəsinə çatdırmaqdır.

“Nyus.am” saytı isə yazır ki, 2024-cü il oktyabrın sonunda Ermənistan müdafiə nazirliyi Hindistan istehsalı olan “Su-30MKİ Flanker-H” qırıcılarının bir partiyasını, həmçinin xüsusi silahların alınması məqsədilə “HAL” (Hindustan Aircraft Limited) təyyarə istehsalçısı ilə danışıqlara başladığını açıqlayıb. Eyni zamanda, Ermənistan 8 ədəd əlavə “Su-30SM Flanker-C” üçün yerinə yetirilməmiş sifarişi ləğv etmək niyyətindədir.

“Avions Legendaires” nəşri qeyd edir ki, bu, Hindistanın özünün “Su-30MKİ”ni ixrac etmək qərarından sonra bağladığı ilk müqavilə olacaq. Hazırda Ermənistanın qırıcılar parkı 2019-cu ilin yazında alınan dörd “Su-30SM Flanker-C” və təxminən 15-ə yaxın köhnə “Su-25K”dan ibarətdir. Lakin qırıcıları qəbul etdikdən bir neçə həftə sonra Ermənistan daha səkkiz ədəd “Su-30SM” sifariş etmək qərarına gəlib. Müqavilə məbləğinin 70 faizə qədəri ödənilsə də, o vaxtdan bəri heç bir təyyarə gətirilməyib. Səbəb sadədir: “Suxoy” Səhmdar Cəmiyyəti onların heç birini istehsal etməyib və bu günə qədər Su-30-lar öz zavodlarını Rusiyanın özünün ehtiyacları üçün tərk edib.

Beş ildən sonra, deyəsən, ermənilərin səbri tükənib. Rusiya nəinki müştərisini, həm də müttəfiqini itirə bilər. Ermənistan “HAL” ilə 8-dən 12-yə qədər “Su-30MKİ”nin tədarükü ilə bağlı danışıqlara başlayıb. Faktiki olaraq, “HAL” “Suxoy”un avansın ödənilməsi şərti ilə səkkiz yeni təyyarəni təhvil alacaq və dörd hazırkı “Su-30SM”i “Su-30MKİ” standartına uyğun modernləşdirəcək. Bu, elektron skan edilmiş orijinal passiv anten radarını aktiv “Uttam” radarı ilə əvəz etməkdir.

Ermənistanın son vaxtlardakı hərbi fəallığı barədə fikirlərini XQ ilə bölüşən Azərbaycan Ordusunun sabiq korpus komandiri, ehtiyatda olan polkovnik Şair Ramaldanov bildirdi ki, Ermənistanın silahlandırılması ilə bağlı mütəmadi məlumatlar yayımlanır. Onun sözlərinə görə, burada təəccüblü heç nə yoxdur. Aydındır ki, Azərbaycanın 44 günlük Vətən müharibəsində Qələbə çalmasından sonra Ermənistan özünə yeni havadarlar axtarmağa başlayıb. Qərb dünyasını təmsil edən ABŞ və Fransa Ermənistanın başlıca yeni havadarlarına çevriliblər. Onlar rəsmi İrəvanı silahlandırmaq prosesi fonunda digər müəyyən məsələlərlə də bağlı addımlar atırlar: “Ermənistan həm daxili imkanlardan, həm də digər imkanlardan istifadə edərək sürətlə ordu qurmağa çalışır. Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsində işğalçı ordunu darmadağın etdikdən sonra onlarda zabit kadrı çatışmazlığı da özünü ciddi şəkildə göstərir. Həmçinin küsərək, yaxud küsdürülərək ordudan uzaqlaşanlar çox olub. Halbuki, bu məğlubiyyətdə onların böyük təqsiri yox idi. İndi isə qarşı tərəf ordunu silahlandırarkən, yeni hərbi hissələr yaradılarkən onların çatışmayan heyətinin təminatı, silahlarla təchizatı, əlbəttə, ehtiyatda olan zabitlərin də yenidən orduya cəlb olunmasına gətirib çıxarır. Yəni, Ermənistan hərbi-siyasi rəhbərliyi kadr çatışmazlığını ehtiyatda olan zabitləri orduya cəlb etmək yolu ilə aradan qaldırmağa çalışır. İstəyirlər ki, ehtiyatda olan zabitlərə üz tutaraq müəyyən ixtisaslar üzrə onlardan ordu quruculuğu prosesində yararlansınlar. Hətta, hərbçilərin təqaüdlərini də saxlayaraq onların orduya qayıtmalarını müəyyən bir şəkildə stimullaşdırmaq istəyirlər”.

Ş.Ramaldanov qeyd etdi ki, bu da təbii bir haldır. Ermənistan açıq-aydın silahlanır. Bu səbəbdən daxildəki kadr potensialından istifadə edilməsi məntiqlidir. Digər tərəfdən Ermənistanın silahlandırılma coğrafiyası getdikcə genişlənir. Bu genişlənmədə bizim diqqətimizi cəlb edən ermənilərin Rusiyaya dost olmayan ölkələrə, məsələn Fransa və ABŞ-yə üz tutmasıdır: “Əlbəttə, Ermənistanın müdafiə naziri Yunanıstan, Fransa və Hindistanla müəyyən müqavilələr imzalayıb. Cənubi Koreyadan tanklar almaqla bağlı müqavilənin imzalanmasına dair məlumatlar var. Yaponiyada da müəyyən görüşlər keçirilir. Bunlar hərbi və hərbi-texniki əməkdaşlığın genişləndirilməsi üçün keçirilən görüşlərdir”.

Ermənistan hərbi hava qüvvələrinin çox köhnəldiyini deyən Ş.Ramaldanov belə olan təqdirdə İrəvanın hərbi təyyarələr parkının yenilənməsinə ehtiyac duyulduğunu bildirdi. Onun sözlərinə görə, burada diqqəti cəlb edən “Su-30”ların alınması ilə bağlıdır: “Bu təyyarələr Rusiyada daha geniş hərbi teatrda istifadə olunması üçün istehsal edilir. Məsələn, “Su-30”-lar İkinci Qarabağ müharibəsində Ermənistan tərəfindən istifadə olunmadılar. Əlbəttə, bunun bir səbəbi Rusiya idi. Digər səbəb isə təyyarənin radiusunun çox böyük olması ilə bağlı idi. Onların Qarabağ ərazisində döyüşlərdə istifadəsi mümkünsüz olmuşdu. Düşünürəm ki, onların yenidən “Su-30”-lara üz tutması qarşıya qoyulan hədəflərlə bağlıdır. Bəlkə də onların hərbi təyyarə parkı “Su-30”-larla bağlı olduğu üçün onlar indi bu parkı daha müasir “Su”larla təmin etməyəı çalışırlar”.

Müsahibimiz qeyd etdi ki, Ermənistanın maliyyə imkanlarının aşağı səviyyədə olmasına rəğmən belə silahlandırılmasının bir neçə səbəbi var: “Gələn məlumatlara görə, Ermənistan Rusiya istehsalı olan 300 milyon dollar dəyərində silah-sursatı Qərbə satmışdır. Qərb onları Ukraynaya göndərmək üçün almışdır. Digər tərəfdən Ermənistanın dövlət büdcəsinə bəzi donor təşkilatları tərəfindən maliyyə ayrılır. Sonra isə silah-sursat almaq üçün həmin maliyyədən ayırmasına imkan verirlər. Belə görüntü yaranır ki, Ermənistan öz vəsaiti hesabına müqavilələr bağlayır və bu silahları alır. Digər boşluqlar isə onun havadarları tərəfindən doldurulur. Bununla da onlar Ermənistanın silahlandırılması prosesində dolayısı ilə iştirak edirlər”.

Ş.Ramaldanov onu da qeyd etdi ki, hansısa dövlətdən silah-sursat almasında təəccüblü heç nə yoxdur. Amma ölkəmizlə müharibə şəraitində olan Ermənistanın silahlandırılması diqqətimizdən yayına bilməz: “Ermənistan nə qədər silahlansa da, əlbəttə, onun gücü Azərbaycanın gücünə çata bilməz. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev aydın şəkildə bildirib ki, istər Ermənistan, istərsə də onun havadarları tərəfindən bizə hər hansı təhlükə yaranarsa, ölkəmiz dərhal qəti cavab tədbirləri görəcək. Eyni zamanda, nəyi necə nə zaman etmək lazım olduğunu da Azərbaycan rəhbərliyi yaxşı bilir. Azərbaycan ərazi bütövlüyünü qorumağa qadirdir. Hər hansı təxribata artıqlaması ilə cavab veriləcək. Ola bilsin ki, bu təxribatların cavabı sadəcə cavab yox, təhlükənin miqyasından asılı olaraq hansısa əlavə tədbirlərin görülməsi də istisna olunmur. Hər halda sülh müqaviləsi imzalananadək Ermənistana gətirilən silahlar Azərbaycan üçün legitim hərbi hədəf kimi qiymətləndirilə bilər”.

***Səxavət HƏMİD***
***XQ***

## Zəfər marafonunun 36-cı günü

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Şanlı Vətən müharibəsi otuzillik işğala son qoyan parlaq Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər yürüşü Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**

# Vətən müharibəsinin xronikası: 1 noyabr



• Müdafiə Nazirliyinin məlumatına əsasən, döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. İşğalçı ordunun xeyli sayda canlı qüvvəsi, bir ədəd piyada döyüş maşını, iki ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, səkkiz ədəd müxtəlif tipli topu, iki rabitə qülləsi, beş ədəd avtomobil texnikası sıradan çıxarılıb.

• Prezident İlham Əliyev Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Qonaqları salamlayan dövlətimizin başçısı deyib: “Sizin səfəriniz bir daha Türkiyə¬–Azərbaycan həmrəyliyini göstərir. Müharibənin ilk günlərindən, ilk saatlarından başlayaraq Türkiyə bizim yanımızdadır. Əziz qardaşım, cənab Prezident dediyi kimi, Türkiyə hər zaman Azərbaycanın yanındadır, Azərbaycan tək deyil. Bu siyasi və mənəvi dəstək bu gün də davam edir. Həm hörmətli Prezident, eyni zamanda, Türkiyə Böyük Millət Məclisinin Sədri, siz – Xarici İşlər naziri, Müdafiə naziri və digər yüksəkvəzifəli şəxslər dəfələrlə Azərbaycana dəstək göstərmisiniz. Bu, bizi, Azərbaycan xalqını çox məmnun edir. Bu, bir daha göstərir biz bütün dövrlərdə - yaxşı günlərdə, çətin günlərdə bir-birimizin yanındayıq. Bu siyasi və mənəvi dəstək əlbəttə ki, bizi ruhlandırır və biz haqq işimizi davam etdiririk”.

Ali Baş Komandan daha sonra bildirib ki, Vətən müharibəsi başlanandan indiyədək əməliyyat uğurla davam etdirilir. Bu günə qədər bir çox kəndlər, şəhərlər, qəsəbələr, o cümlədən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı şəhərləri işğalçılardan azad edilib. Ümumiyyətlə, təqribən, 200-ə yaxın yaşayış məntəqəsi geri alınıb.

Dövlətimizin başçısı daha sonra vurğulayıb: “Mən bu müddət ərzində dəfələrlə bildirmişdim ki, biz istəyirik bu məsələ artıq danışıqlar masasında öz həllini tapsın. Ancaq Ermənistan buna imkan vermir, 3 dəfə elan edilmiş atəşkəsi kobudcasına pozmuşdur, o cümlədən Gəncəni ballistik raketlərlə bombalamışdır, ondan sonra Bərdə şəhərini bombalamışdır və çoxsaylı itkilərimiz olubdur. Bu, bir daha Ermənistanın qeyri-insani davranışını göstərir və onu göstərir ki, onlar sülh istəmirlər. Onlar istəyirlər ki, bu işğal əbədi olsun. Onlar bizim ordumuz tərəfindən azad olunmuş yaşayış məntəqələrini yenidən işğal etmək istəyirlər. Müharibənin davam etməsinin əsas səbəbi də məhz budur. Əgər Ermənistan artıq öz çirkin əməllərindən əl çəkərsə, o zaman atəşkəs təmin ediləcək və məsələnin həlli danışıqlar masasında olacaqdır”.

Prezident İlham Əliyev söhbətində bu prosesin uzun sürməyəcəyinə əminliyini vurğulayaraq əlavə edib ki, biz 30 il gözləmişik. Biz istəyirik ki, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş digər torpaqlardan çıxarılması danışıqlar masası arxasında qısa müddət ərzində təmin olunsun. Əks təqdirdə, biz istənilən yolla öz ərazi bütövlüyümüzü bərpa etməyə davam edəcəyik və dediyim kimi, sona qədər gedəcəyik.

Ermənistan faktiki olaraq öz məğlubiyyətini etiraf edib. Bu yaxınlarda işğalçı ölkənin baş naziri Rusiya Prezidenti Putinə məktub göndərib. Bu məktub, əslində, məğlubiyyətin etirafıdır. Çünki Rusiyadan hərbi dəstək istənilib, halbuki, buna heç bir əsas yoxdur. Azərbaycan öz hərbi əməliyyatlarını beynəlxalq birlik tərəfindən tanınmış Azərbaycan ərazisində keçirir, Ermənistan ərazisində hər hansı bir əməliyyat keçirilmir, bizim belə planlarımız da yoxdur. Əgər olsaydı, biz bunu bu ilin iyul ayında edərdik...

Mövlud Çavuşoğlu söhbət zamanı bildirib: “Bütün bu üstünlüyə – həm döyüş meydanındakı üstünlüyə, həm hüquqi üstünlüyə, həm də haqlı olmağımıza baxmayaraq, atəşkəs məsələsində və danışıqlarda da özünə güvənən bir dövlət və millət kimi Sizin liderliyinizlə Azərbaycan güclü dövlət olduğunu bütün dünyaya göstərdi. Bunu anlayan var, anlamayan var, anlamaq istəməyən var. Ermənistanın da nə etdiyini və atəşkəsi hər dəfə pozduğunu hər kəs görür. Amma bunu söyləmək istəməyən çoxdur, biz bunu bilirik. Bu səbəbdən də biz öz aramızdakı həmrəyliyi daha da gücləndirərək haqqımızı müdafiə etməkdə davam edəcəyik”.

• Müdafiə Nazirliyinin mətbuat xidmətidən bildirilib ki, oktyabrın 31-də axşam saatlarında ərazinin havadan müşahidəsi zamanı sursatla dolu iki yük maşınının daldalandığı yer müəyyən edilib. İstiqamətlənmiş dəqiq atəş zərbəsi ilə hərbi nəqliyyat vasitələri dərhal məhv edilib.

İşğal olunmuş ərazimizdə yerləşən Ermənistan silahlı qüvvələrinin raket-artilleriya silahları anbarı bir neçə gün əvvəl tərəfimizdən məhv edildikdən sonra düşmən bölmələrində ciddi sursat qıtlığı yaranıb. Buna görə də düşmən sərəncamında olan bütün sursatları döyüşlərin ən qaynar getdiyi istiqamətdə istifadə etməyə çalışır.

• Zəngilan istiqamətində düşməndən növbəti hərbi qənimət götürülüb.

• Düşmənə məxsus iki ədəd “Qrad”, iki artilleriya batareyası, hərbi avtomobil korteji sıradan çıxarılıb.

• Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin canlı qüvvəsinin məhv edilməsinin videogörüntüsünü paylaşıb.

• Oktyabrın 31-də Hərbi Hava Qüvvələrinin Su-25 həmlə təyyarəsi düşmən mövqelərini bombardman edib. Düşmənin xeyli sayda canlı qüvvəsi aviazərbələrlə məhv edilib. Endirilən aviazərbələr nəticəsində düşmənin səngərlərdə və yeraltı sığınacaqlardakı xeyli sayda canlı qüvvəsi məhv edilib.

***XQ***

# UNESCO vandalları himayə etməkdən əl çəkmir

(əvvəli 1-ci səhifədə)

Rəsmi İrəvanın böhtan xarakterli bəyanatlardan, Azərbaycana qarşı ərazi iddialarından hələ də əl çəkmədiyi, Ermənistan XİN rəhbəri Ararat Mirzoyanın "Dağlıq Qarabağ" ifadəsini işlətməsi onların Azərbaycanın ərazi bütövlüyünü yalnız sözdə tanıdığını göstərir. Hayların baş diplomatının Qarabağa UNESCO-nun missiyasının göndərilməsi ilə bağlı cəfəng təklifinə gəldikdə isə deməliyik ki, belə bir faktaraşdırıcı missiyanı Azərbaycanda da gözləyirlər. Ən azı, o səbəbdən ki, həm Qarabağda, həm işğalından azad edilmiş digər ərazilərimizdə, həm də Qərbi Azərbaycanda milli-mədəni irsin sistemli şəkildə məhv edilməsi ilə bağlı bizim çağırışımıza UNESCO tərəfindən hələ də bizim çağırışımıza cavab verilməyib.

Erməni mediası yazır ki UNESCO-nun Mədəniyyət və Fövqəladə Hallar Departamentinin direktoru, 1954-cü il Haaqa Konvensiyasının və onun iki protokolunun (1954 və 1999-cu illər) katibi Krista Pikkat təşkilatın narahatlığını ifadə edib. O, "Qarabağda müxtəlif mənşəli və tipli mədəni sərvətlərin məhv edilməsi haqqında" danışıb. Onun sözlərinə görə, UNESCO-nun baş direktoru da münaqişədən sonra vəziyyəti qiymətləndirmək, təşkilatın bu regionda müxtəlifliyin qorunub saxlanmasına və qorunmasına necə kömək edə biləcəyini anlamaq üçün bölgəyə texniki missiyanı göndərmək arzusunu ifadə edib".

Burada diqqətçəkən məqam ondan ibarətdir ki, otuz illik erməni işğalı dövründə Azərbaycanın mədəni-tarixi irsi dağıdılan zaman Qarabağa heç vaxt öz missiyasını göndərməyən UNESCO bölgəyə texniki heyət göndərmək arzusunu yalnız indi bildirib. Bakı ötən ilin noyabrında bu qurumu Ermənistandakı Azərbaycan mədəni irsinin vəziyyətini qiymətləndirmək üçün missiya göndərməyə çağırmışdı. Amma UNESCO tərəfindən bu istiqamətdə konkret addımlar atılmadı ki, bu da Azərbaycana münasibətdə açıq ikili standartın göstəricisidir.

İndi onları çox böyük hörmət bəslədikləri ermənilər çağırırlar, buyurub gəlsinlər. Amma obyektiv olsunlar. "Çox mədəni xalq" hesab etdikləri ermənilərin Azərbaycanın qədim tarixi və dini abidələrini, məscid və qəbiristanlıqlarını, şəhər, kənd və digər yaşayış məskənlərini nə günə qoyduqlarını öz gözləri ilə görsünlər.

* * *

Oxuculara xatırladaq ki, cari ilin sentyabrında Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələri ATƏT və Avropa Şurası rəhbərliyinə açıq məktubla müraciət ediblər. ATƏT-in fəaliyyətdə olan sədri Yan Borqa və Avropa Şurasının baş katibi Alan Berseyə ünvanlanan məktubda tarixən azərbaycanlıların yaşadıqları Ermənistanda soydaşlarımıza məxsus maddi-mədəni irsin məhv edilməsinə yönəlmiş sistemli kampaniya apardığı barədə məlumat verilib: "Bu qəsdən məhvetmə kampaniyası onilliklərdir davam edir. Ürək ağrısı ilə qeyd edirik ki, bu gün Ermənistan ərazisində 1870-ci ildə qeydiyyatdan keçmiş 269 məsciddən yalnız biri salamat qalıb. Bundan başqa, azərbaycanlılara məxsus yüzlərlə qəbiristanlıq sistemli şəkildə dağıdılıb. Ermənistan paytaxtı İrəvan şəhəri bir vaxtlar Şəhər, Dəmirbulaq kimi rayonlardan ibarət olub və Ermənistan hökumətinin Azərbaycan xalqının mədəni irsinin silinməsi istiqamətində apardığı sistemli işin bir hissəsi kimi Təpəbaşı məhəlləsinin 2000, 2009, 2008, 2012-ci il tarixlərində abadlıq-quruculuq işlərinin aparılması bəhanəsi ilə tamamilə məhv edilməsi planlaşdırılır", – yazılı müraciətdə deyilir. Məktubda, həmçinin qeyd olunub ki, Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələri Təpəbaşı məhəlləsinin dağıdılmasının qarşısının alınması ilə bağlı müraciətlərinə UNESCO-dan heç vaxt cavab almayıblar.

* * *

Mövzu ilə bağlı "XQ"-yə açıqlama verən **Gənc Demokratlar İnstitutu İctimai Birliyinin sədri, politoloq Yeganə Hacıyeva** bildirdi ki, BMT-yə daxil olan qurumların nizamnamələrində əksini tapmış şərtlərin UNESCO-ya və onun fransız dövlətinin təsiri altında formalaşan rəhbərliyinə, sanki, aidiyyəti yoxdur: "Baş direktor Odri Azule seçiləndən sonra UNESCO-nun nizamnaməsinə, eləcə də mandatına məhəl qoymadan fəaliyyət göstərir. Xatırladım ki, keçən il O.Azulenin yanlış idarəçiliyi, üzv dövlətlərin ayırdığı vəsaitlərindən şəxsi maraqları üçün sui-istifadəsi, nizamnamə qaydalarına hörmətsizliyi, Fransanın milli hakimiyyət orqanlarından gələn sifarişləri qeyd-şərtsiz həyata keçirməsi səbəbindən onun vəzifəsindən kənarlaşdırılması üçün mövcud mexanizmlərin işə salınmasına start verildi. Nəticədə baş direktora gələcəkdə UNESCO-nu



Fransanın alt təşkilatı kimi idarə edəcəyi halda ciddi intizam cəzasına məruz qalacağı ilə bağlı xəbərdarlıq edildi. Ümumiyyətlə, Fransanın öz adamları vasitəsilə BMT təsisatlarını ələ keçirməsi ənənəsi qədimdir. Bu barədə 2000-ci ildə "The Guardian" qəzeti araşdırma dərc etmişdi. Nəşr özəl sənədlərə əsasən göstərir ki, iki fransız nazir UNESCO-nun katibliyinə birbaşa müdaxilə edərək keçmiş prezidentin köməkçilərinə BMT-nin Parisdə yerləşən Təhsil, Elm və Mədəniyyət Təşkilatında yüksək vəzifələr verilməsinə nail olublar".

Y.Hacıyeva UNESCO-nun Azərbaycana qarşı daim ikili siyasət yürütməsi məsələsinə də toxundu: "Rəsmi Bakı dəfələrlə UNESCO-nu Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfər etməyə və erməni işğalçılarının Azərbaycanın milli, dini və mədəni başəri dəyərlərinə qarşı vandallığın miqyasını dəyərləndirməyə dəvət edib. Son üç il ərzində UNESCO müxtəlif izahlarla öz missiyasını Qarabağa göndərməkdən imtina edib, işğaldan azad edilmiş ərazilərimizdəki vandalizmin miqyasını sənədləşdirməkdən yayınıb. İşğaldan azad etdiyimiz ərazilərdəki bütün şəhərlər, qəsəbələr, kəndlər, mülki infrastruktur, qədim abidələr, məscidlər, qəbiristanlıqlar, ümumilikdə isə azərbaycanlıların bütün başəri və mədəni irsi ermənilər tərəfindən tamamilə dağıdılıb.

Dünyanın aparıcı KİV-ləri, Bakıda akkreditə olunmuş xarici diplomatik korpusların nümayəndələri Ağdam şəhərini "Qafqazın Xirosiması" adlandırdılar. Dağıntıların miqyası və xarakteri onu göstərir ki, bu, döyüşlərin və ya bombardmanın nəticəsi deyil, Azərbaycana və azərbaycanlılara qarşı erməni faşistlərin nifrətinin ifadəsidir".

Bu barədə yaqin ki, təkcə UNESCO-da deyil, Avropa Şurasında, ATƏT-də də xəbərdardırlar. Ona görə də Azərbaycanın erməni barbarlığına göz yummağa üstünlük verən bu beynəlxalq strukturlara inamını itirməsi təəccüblü deyil.

* * *

Məlumdur ki, erməni vandalları Azərbaycanın Qarabağ və ətraf rayonlarında 927 kitabxananı, 60-dan çox məscidi, 44 məbədi, 473 tarixi abidəni, saray və muzeyi dağıdıb, həmçinin 40 min muzey eksponatlarını talayıb, aparıblar. Ermənistanın qanunsuz əməllərinin qarşısını almaq üçün Azərbaycan dəfələrlə işğal olunmuş ərazilərə UNESCO-nun missiyasının göndərilməsini təklif edib, amma İrəvan ən müxtəlif yollarla bunun qarşısını alıb.

Öz növbəsində Ermənistanın Azərbaycan ərazilərində törətdiyi mədəni və tarixi soyqırımı haqqında ətraflı məlumatların yer aldığı bir neçə nəşr hazırlanıb. Məsələn, hələ 2007-ci ildə "Azərbaycana qarşı müharibə – mədəni irsə hücum" kitabı hazırlanaraq UNESCO-ya təqdim olunub. Orada Ermənistanın işğal etdiyi ərazilərdə dağıdılmış mədəniyyət və dini abidələrin siyahısı, habelə alban kilsələrinin erməni kilsəsi kimi təqdim edilərək qəsdən erməniləşdirilməsi barədə məlumatlar yer alıb. Məlum olduğu kimi, UNESCO bu faktlara heç bir reaksiya vermədi.

Yeri gəlmişkən, bir faktı xatırlatmaq yerinə düşər: 2022-ci ilin noyabrında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva UNESCO-nun xoşməramlı səfiri kimi fəaliyyətini dayandırıb və bu barədə təşkilatın baş direktoru, Fransanın keçmiş mədəniyyət naziri Odri Azule ünvanladığı məktubda məlumat verib. Məktubda 30 il yaxın işğal dövründə Azərbaycanın mədəni irsinə və tarixi abidələrinə qarşı erməni siyasəti və vandalizmi barədə məlumatlar öz əksini tapıb. Ermənistanın işğalı nəticəsində Azərbaycanın mədəni irsinə dəymiş ziyanın qiymətləndirilməsi məqsədilə yaxın gələcəkdə UNESCO-nun işğaldan azad edilmiş ərazilərə missiyasının təşkilinə də ümid ifadə olunub.

Bu kontekstdə digər məsələlərlə yanaşı, Azərbaycan Prezidenti İlham Əliyevin Bakıda keçirilən "Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə" mövzusunda beynəlxalq konfransın iştirakçılarına müraciətini qeyd etmək yerinə düşər: "Azərbaycan UNESCO-ya müraciət edib ki, bu ölkədə illərdir dağıdılmış mədəni və dini abidələrimizin vəziyyətini qiymətləndirmək üçün Ermənistana texniki missiya göndərsin. Təəssüf ki, UNESCO hələ də bu çağırışa cavab verməyib".

BMT-nin aparıcı qurumlarının, o cümlədən vandalların himayəçisi rolunda çıxış edən UNESCO-nun Azərbaycanın tarixi-mədəni irsinə qarşı Ermənistanın təcavüzünü təsdiqləyən real faktlara susması onları beynəlxalq hüquq qarşısında məsuliyyətdən azad etmir. Müdriklərin dediyi kimi, haqq nazilər, amma üzülməz. Ermənistan UNESCO kimi ikiüzlü təşkilatların dəstəyinə baxmayaraq, gec-tez bütün pis əməllərinə görə cavab verəcək.

*İ.HƏSƏNQALA*
*XQ*

# Səfir Dekotininin "işğal" məntiqi

## *və yaxud erməni avantürizminə məzar daşı*

(əvvəli 1-ci səhifədə)

Bəli, səfir Dekotini "mən bütün sünikliləri dəstəkləməyə gəlmişik" deməklə ağ yalan danışır. Ancaq ali diplomatik təmsilçinin saxta sentimentallığa hesablanmış fikirləri bununla məhdudlaşmır. Nerkin Handın bir hissəsinin, guya, Azərbaycan tərəfindən işğal olunduğunu deyən səfir əlavə edir ki, bu durum əhaliyə böyük çətinliklər yaşadır, insanlar daimi təşviş içərisində yaşayır, yeni zərbələrlə üzləşəcəklərindən ehtiyatlanır, içməyə su belə tapmırlar. Göründüyü kimi, səfir vəziyyəti dramatikləşdirməklə məşğuldur.

O.Dekotini dramatizmi artıraraq, eyni zamanda, bildirib ki, Nerkin Hand kəndi üç tərəfdən azərbaycanlılarla (əsgərlərlə) əhatə olunub və bu vəziyyətdə ömür sürmək çox çətindir. Bu yerdə 2023-cü ilin lokal xarakterli antiterror tədbirlərindən sonra Fransanın ayrı-ayrı təmsilçilərinin xatırladaq. Bu, baş nazir Nikol Paşinyanın Praqada ölkəmizin ərazi bütövlüyünü tanıdığını bəyan etdikdən sonra, yəni danışıqlarda pozitiv məqamın nəzərə çarpdığı bir vaxtda yaşanmışdı.

Makronun bəyanatının hansı fəsadlar törətdiyi də məlumdur. O, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçilik missiyası olan Brüssel prosesini pozmuşdu. Nəzərə alaq ki, Praqadan sonra Azərbaycan və Ermənistan liderləri dekabrda Belçikanın paytaxtında yenidən bir araya gəlməli idilər. Həmin vaxt baş nazir Nikol Paşinyan təmasa ancaq Makronla birgə qatılacağına dair şərt irəli sürdü. Ölkəmizin rəhbərliyi, haqlı olaraq, bununla razılaşmadı. Çünki Azərbaycanı işğalçı adlandıran ölkənin rəhbərinin nizamlama masasında əyləşməsi qeyri-mümkün idi. Beləliklə, Mişelin sülh missiyası yarımçıq qaldı.



Qarabağdan Ermənistana köç etmiş ermənilərlə söhbətlərində tutduqları qızışdırıcı mövqenin ayrı-ayrı elementləri yada düşür. Onlar "ruh yüksəkliyi" yaradaraq, həmin ermənilərin öz torpaqlarına qayıtmaları üçün mübarizə aparmalı olduqlarını bildirmiş, habelə, silaha sarılmalarının mümkünlüyünə dair eyhamlar səsləndirmişdilər. İndi səfir Dekotininin də dözülməzlik məntiqi eyni mərama hesablanıb. Deməli, azərbaycanlıların əhatəsində yaşamaq mümkünsüz imiş. Yəqin, elə buna görə də Fransa otuz ilə yaxın müddətdə ATƏT-in hazırda canını tapşırmış Minsk qrupunun həmsədr ölkəsi kimi işğalın başa çatması üçün heç bir iş görmədi. İşğala son qoyulduqdan sonra isə Qarabağın erməni əhalisinin köçündə başlıca rol oynadı, Azərbaycanın həmin əhalinin bölgədə qalması üçün verdiyi təminatlara məhəl qoymadı.

Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiyasına başlanıldığını, ölkəsinin prosesə, guya, dəstək verdiyini, həmçinin işlərin 1991-ci ilin Alma-Ata Bəyannaməsinə uyğun reallaşdırıldığını, sənədin əsas kimi götürüldüyünü diqqətə çatdıran səfir Dekotininin, faktiki olaraq, Azərbaycanı işğalçı adlandırması son dərəcə cəfəngdir. Sadə məntiq var: Bir halda ki, sərhədlər müəyyən deyil, hansı işğaldan söhbət gedə bilər? Səfir özü-özünü inkar edir.

Bu cür yanaşma, bütövlükdə, Fransa dövləti üçün xarakterikdir. Fikrimizin sübutu kimi prezident Makronun 2022-ci ilin payızında yerli televiziyaya müsahibəsində Azərbaycanı işğalçı adlandırmasını

İndi Azərbaycan və Ermənistan arasında nizamlamada irəliləyişlər var. Belə bir durumda Fransa səfiri Sünikə gedir və Azərbaycanın təcavüzkar obrazını aşılayan bəyanat səsləndirir. Deməli, Paris köhnə amplausında qalır, barış mühitinin formalaşmasına maneçilik törədir, qızışdırıcı mövqe tutur. Yəni, səfir həm COP29 xüsusunda anti-Azərbaycan təbliğatına güc verir, həm də sülhə qarşı çıxır.

Ümumən, Qərb imperializmi üçün azərbaycanlılarla, bütövlükdə, türklərlə ermənilərin birgə yaşamaları anlayışı, qətiyyən, yoxdur və olmayıb da. Çünki ermənilərə həmişə alət kimi yanaşıblar. Bu mənada çar Rusiyası tərəfindən onların Cənubi Qafqaza köçürülmələri də Qərbə sərf edib. Yəni, məsələ ilə bağlı rus və Qərb imperializminin maraqlarında uzlaşma olub. Hər iki tərəf çalışıb ki, Türk dünyasının arasına erməni pazı yeritsin. Səfir Dekotinin üzərində dayandığı Nerkin Hand, yəni keçmiş Baharlı kəndi də bu baxımdan olan bir nöqtədir. Əlbəttə, bu kəndin, eləcə də Zəngəzur mahalının hansı şəraitdə Ermənistana verilməsindən söz açmaq niyyətindən uzağıq. Onsuz da tarixi həqiqətlər bəllidir. O da bəllidir ki, dekotinilərin nə deməsindən, nə danışmasından asılı olmayaraq, həqiqətlər gün işığı kimi nə zamansa üzə çıxır, ədalət zəfər çalır. Hazırda Baharlıda, həmçinin, Qafanın bir neçə yüz metrliyində Azərbaycan əsgəri dayanıbsa, bunun özündə də ilahi ədalət payı var.

Yazıya məzar xüsusunda başladıq. Fikrimizi ədalət gözləntisi ilə bitirərək deyək ki, ədalətin təcəlli etdiyi indiki zamanda Fransa və Qərbin digər anti-Azərbaycan dairələrinin yalnız bir missiyası ola bilər – ölmüş erməni avantürizminin məzarına başdaşı olmaq. Əslində, səfir Dekotini Sünikə yalnız bunun üçün yollanmışdı. Nə deyək, sağ əli digər ermənipərəstlərin başına.

*Ə.RÜSTƏMOV*
*XQ*

# Ermənistan Gürcüstandakı seçkilərdən nəticə çıxaracaqmı?

(əvvəli 1-ci səhifədə)

Bir sözlə, rəsmi İrəvan ölkəni təhlükəli sularda üzdürməkdədir. Su da deyirik, əslində, ortada bataqlıq var. Ermənistan həmin bataqlığın illüziya girdabındadır.

Yəqin elə buna görədir ki, bəzi erməni siyasi ekspertlər ölkələrinin Gürcüstandan nümunə götürməli olduğunu vurğulayırlar. Onlardan biri də politoloq Qriqor Balasanyandır. O, Ermənistan radiosunun "Abovyan vaxtı" proqramının efirində deyib ki, ölkəsi milli dövlət qurmaq istədiyi üçün vizasız gediş-gəliş və ya Qərb qrantlarına əhəmiyyət verməyən Gürcüstanın yolu ilə getməlidir. Bu yerdə əvvəldə səsləndirdiyimiz bir fikrə qayıdaq. Söhbət Qərbin Gürcüstandakı seçki məğlubiyyətinin Ermənistana təsirindən, daha dəqiq desək, onun Ermənistandakı mövqelərini laxladacağına dair fikirdən gedir.

Bəli, Gürcüstan xalqı Rusiya ilə münasibətlərin qorunub saxlanmasının tərəfdarı olan və anti-Rusiya sanksiyalarına qarşı çıxan hakim "Gürcü Arzusu" Partiyasına etimadı elə-beləndən göstərmədi. Bu məqamı vurğulayan Q.Balasanyanın diqqət çəkdiyi ən mühüm cəhət "Gürcü Arzusu"nun ermənilərlə, demək olar, eyni dəyərlər sistemini bölüşən gürcü xalqı arasında savadlı kampaniya aparmasıdır. O deyib:



"Gürcüstanda keçirilən seçkilər Ermənistan üçün bələdçi olmalıdır. Yaşamaq və nə isə yemək, Avropa naminə güclü Şimal qonşusu ilə qarşıdurmada olmağa dəyməz".

Q.Balasanyanın baxışına görə, Gürcüstanın seçki nümunəsi dünyada yaranmış yeni tendensiyanı təsdiqlədi. Sübut olundu ki, anti-Rusiya məhdudiyyətlərinin tətbiqindən imtina dövlətin və onun hakimiyyətinin reytinqini sanksiyalara qoşulmaqdan daha çox artırır. O, Ermənistandakı vəziyyətə qayıdaraq, ölkənin Qərbyönümlü dairələrinin yalançı gündəm tirajladıqlarını vurğulayıb. Bu gündəmin başlıca təqdimat forması isə belədir: Əgər üzümüzü Qərbə çevirsək, çörəklə təmin olunacağıq, çörək olmasa, zəmanətli deyilik.

Ekspertin fikrincə, reallıq ondan ibarətdir ki, Ermənistan hazırda ucuz rus buğdasını, hətta normada nəzərdə tutulduğundan bir qədər böyük həcmdə almaq üçün unikal imkana malikdir. Bundan başqa, Ermənistanın Rusiyadan və Avrasiya İqtisadi İttifaqı ölkələrindən ucuz enerji resursları idxalı və bu sistem çərçivəsində təhlükəsizliyini təmin etmək imkanı da var. Avropa, konkret olaraq, Avropa İttifaqına gəldikdə, bu məkan qlobal miqyasda taxıl istehsal edən ölkələr sırasında deyil. Al ABŞ-dan və Kanadadan buğda alır. Çünki başqa heç bir yerdə yoxdur. Rusiya isə buğdanı həm də Çindən idxal edir. Deməli, ölkənin ticarət tranziti baxımından da rolu böyükdür.

"XXI əsrdə bütün dünya yüksək texnologiyalar dövrünə qədəm qoyur və əmin oluruq ki, bizimlə heç bir əlaqəsi olmayan anlaşılmaz geosiyasi maraqlar naminə "Fujika" kerosin sobaları dövrünə qayıdılmayacaq", – deyən erməni politoloq Avropa ilə vizasız gediş-gəliş məsələsi üzərində dayanıb. Onun fikirlərindən gəlinən qənaət budur ki, maliyyə vəsaiti olmadan "köhnə qitə"yə səyahət, bölgəni restorana getmədən, "bulka" yeyərək gəzmək mənasız əyləncədir: "Dünyanı görmək, Avropaya səyahət üçün pul tələb olunur. Əziz həmvətənlər, sizdə belə pul varmı?" Səyahət etməyə imkanı olanlar onsuz da gedirlər. Yəni, pulluların vizaları hazırdır. 10 illik vizalı pasport daşıyanlar deyirlər ki, gəlin, viza rejimini aradan qaldıraq. Şəxsən onlar üçün hər şey yaxşı olacaq, təhlükə yaranarsa, ölkəni tez tərk edəcəklər".

Politoloq Q.Balasanyan, həmçinin, hesab edir ki, Ermənistan BRICS-ə qoşulmaqla, son 30 ildə təzyiqi altında olduğu Qərbin ultra-liberal təsirindən xilas ola bilər. O, qurumun ölkə üçün iqtisadi məsələlərdən tutmuş, ekzistensial təhlükəsizliyə qədər çox ciddi geosiyasi və regional əhəmiyyətinin olacağına da əminliyini bildirib. Ekspertin sözlərinə görə, BRICS-i yaradan ölkələr Ermənistanın mövcudluğuna, erməni xalqının ənənəvi dəyərlər sisteminə təhlükə yaratmırlar və ən azı bu səbəbdən ölkə həmin təşkilatda yer almalıdır.

Sonda qeyd edək ki, Gürcüstandakı seçkilərin nəticələrinin Ermənistana dərs olması mahiyyəti aktualdır. Şübhəsiz, Balasanyanın baxışlarına bənzər baxışların gələcəkdə daha da güclənəcəyi ehtimalı böyükdür. Belə bir durumda bir məsələ barədə düşünməyə dəyər. Rusiyanın orbitinə qayıtmaq erməni avantürizminin aqibətinə hansı təsiri göstərəcək. Təminat varmı ki, bu avantürizm yenidən alovlanmayacaq. Axı Rusiyada, belə demək mümkünsə, erməni sevdalılar, kifayət qədər, çoxdur və onların rəsmi Moskvanın qərarlarına təsir imkanları hələ də qalmaqdadır.

*Ə.CAHANGİROĞLU*
*XQ*

1 Noyabr Kənd Təsərrüfatı İşçiləri Günüdür

# Aqrar inkişafın müasir su təminatı

## *Bu sahədə əsas tələb qənaət və yüksək məhsuldarlıqdır*

**Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzindən qəzetimizə verilən məlumata əsasən, Azərbaycanda suvarılan əkin sahələrinin 10 faizində müasir suvarma sistemləri qurulub. Bu, fermer təsərrüfatlarında tətbiq edilən pivot suvarma sudan daha qənaətlə istifadəyə (40 faizə qədər), məhsuldarlığı və suvarma səmərəliliyini artırmağa imkan verib. Son illərdə ölkədə fermerlərə müasir suvarma sistemlərinin (yağış yağdırma, damcı suvarma və s.) tətbiqi ilə bağlı dünyada alternativi olmayan dövlət dəstəkləri göstərilib. Bunun nəticəsidir ki, respublikada suvarılan əkin sahələrinin 10 faizində müasir suvarma sistemləri qurulub.**



Fermer təsərrüfatlarında tətbiq edilən pivot suvarma sudan daha qənaətlə istifadə olunmasına (40 faizə qədər), məhsuldarlığın və suvarma səmərəliliyinin artırılmasına, sahədə su sərfiyyatının dəqiq hesablanmasına, gübrə və digər kimyəvi maddələrin su ilə birgə tətbiq edilməsinə imkan verir, torpaq eroziyası riskini azaldır.

Azərbaycan iqtisadiyyatının əsas sahələrindən biri olan kənd təsərrüfatı ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində və iqtisadi inkişafın təşviqində mühüm rol oynayır və respublikada aqrar sektorun yeni qabaqcıl texnologiyalar əsasında inkişaf etdirilməsi istiqamətində gerçəkləşdirilən layihələr mühüm önəm daşıyır. Bu baxımdan ölkədə torpaq və su ehtiyatlarının məhdud olması şəraitində kənd təsərrüfatında qarşıya qoyulan əsas hədəflərdən biri də vahid sahədə məhsuldarlığı artırmaqla daha böyük istehsal həcmləri yaratmaqdan ibarətdir.

Aqrar İnnovasiya Mərkəzindən, həmçinin bildirilib ki, hazırda taxılçılıq regionlarında 15 min hektara qədər sahədə innovativ texnologiyalar tətbiqi, rəqəmsal həllərə üstünlük verilməsi məhsuldarlığın və səmərəliliyin artmasına müsbət təsir göstərir. Bu, eyni zamanda, əkin vaxtının dəqiq müəyyənləşdirilməsinə, lazımi gübrələrdən geniş istifadə olunmasına, torpağın nəmliyinin saxlanılmasına və məhsul yığımı üçün optimal vaxta nəzarət etməyə imkan verir.

İnnovativ texnologiyaların tətbiqi əmək, su, gübrə və ümumilikdə, istehsal xərclərini azaltmaqla yanaşı, istehsalın səmərəliliyini artırmağa əlverişli şərait yaradır. Bu baxımdan bir çox taxılçılıq təsərrüfatlarında torpaqda nəmliyin qorunub saxlanması və torpaqların alt münbit olmayan qatının üzə çıxarılmaması və yüksək məhsuldarlıq göstəricilərinin gerçəkləşdirilməsi üçün innovativ torpaqqoruyucu texnologiyalardan geniş istifadə edilir. Bunun üçün "ağıllı" kənd təsərrüfatı texnikalarından istifadə olunur. Xüsusilə torpaq becərmədə, torpağın səpinə hazırlanmasında, səpin aparılmasında, gübrələmə və dərmanlama proqramlarının icrasında istifadə edilən texnikalar "GPS" naviqasiya sistemləri ilə təchiz olunub.

Belə texnikalar vasitəsilə həyata keçirilən texnoloji və digər əməliyyatlar, demək olar ki, baş verə biləcək xətaları minimuma endirir. Odur ki, belə təchiz olunan ayrı-ayrı taxılçılıq təsərrüfatlarında ərzaqlıq buğdanın orta məhsuldarlıq göstəriciləri (hektara 55-60 sentner arasında dəyişir) yüksəkdir. Eyni zamanda, istehsal olunan buğda məhsulunun keyfiyyəti də dövlət standartının tələblərinə cavab verir. Hər il bu innovativ texnologiyalar ölkənin müxtəlif taxılçılıq regionlarında 15 min hektara qədər sahədə tətbiq olunur.

"Strip-till" texnologiyasının tətbiq edildiyi əkinlərdə isə payızlıq buğdanın hektara orta məhsuldarlığı 58 sentner təşkil edib. Bu da ölkə üzrə hər hektardan, təqribən, 25-26 sentner əlavə ərzaqlıq buğda məhsulunun istehsalına imkan verib. Bu texnologiya zolaqlı torpaq becərilməsi adlanır və o, dünyanın bir çox ölkələrində, o cümlədən ABŞ, Kanada, Böyük Britaniya, Almaniya, Fransa və bir çox Avropa ölkələrində geniş yayılıb. Bu zaman Polşa istehsalı olan, kombinə edilən və bir gedişdə bir neçə əməliyyatı eyni vaxtda reallaşdıran "Mzuri" texnikasına üstünlük verilib. Bu texnologiya ölkənin qərb bölgəsində buğda və təkrar qarğıdalı əkinlərində tətbiq edilib. Yeni texnologiyanın tətbiqi ilə torpaq hazırlığından tutmuş səpinə qədər olan bütün əməliyyatlar tam şəkildə bir gedişdə icra olunub. Bu da resurslara kifayət qədər qənaət olunmasına imkan yaradıb.

"Strip-till" texnologiyasının tətbiqi dizel yanacağına 50 faiz qənaət olunmasına, atmosferə atılan karbon qazının 80 faizə qədər azalmasına imkan verir. Eyni zamanda, bu texnologiya torpağın üçdə iki hissəsinin dincə saxlanılmasına, hektara gübrə normasını 50 faizə qədər azaldılmasına, torpağın kimyəvi maddələrlə çirklənməsinin qarşısının alınmasına və məhsuldarlığın artmasına şərait yaradır.

Qeyd edək ki, "Mzuri" ehtiyatlara qənaət edən "Strip till" texnologiyası Azərbaycanda ilk dəfə "Azərşəkər" MMC-nin Ceyrançöl ərazisində yerləşən aqroparkında təkrar qarğıdalı və soya əkini zamanı istifadə olunub. Onun üstün cəhəti 4 prosesi (dərin yumşaltma, dərinlik boyu gübrə emalı, müxtəlif çeşidli toxumların dəqiq səpini və bərkidici çarxlarla toxumların basdırılması) eyni vaxtda yerinə yetirməsidir. Bu texnikanın istifadəsinin əsas məqsədi suya və yanacağa qənaət, torpağın münbit qatının qorunub saxlanması və havaya buraxılan zəhərli qazların təsirinin aradan qaldırılmasıdır.

Qeyd edək ki, bu ilin ilk 9 ayı ərzində Azərbaycan 8 milyon 719 min ABŞ dolları dəyərində taxıldan, undan, nişastadan və ya süddən alınan hazır məhsullar, eləcə də un qənnadı məmulatları ixrac edib. Ölkənin qeyd olunan məhsullar üzrə ümumi idxala çəkdiyi xərc isə 142 milyon 789 min ABŞ dolları təşkil edib.

# İcbari Sığorta Bürosunun uğuru

**"İcbari Sığorta Bürosu" Hüquqi Şəxslərin İttifaqı (İSB) Böyük Britaniyada keçirilmiş "Global Insurtech Awards" Mükafatlandırma Proqramında 3 kateqoriya üzrə təltifə layiq görülüb. Qurum bu mükafata fəaliyyətində innovativ texnologiyaların tətbiqinə xüsusi yer ayırdığına, IT layihələri, innovativ yanaşmalar və müştəri məmnuniyyətinə verdiyi töhfələr sayəsində nail olub.**




Müştərilərlə əlaqələrin effektiv idarə olunması və onlara təqdim edilən xidmətlərin keyfiyyətinin artırılması nominasiyasında İSB-nin informasiya sistemi birincilik əldə edərək "Best Customer Engagement Software" mükafatına layiq görülüb. "Best Embedded Insurance Provider" mükafatı üzrə ikincilik İSB-nin inteqrasiya olunmuş sığorta mexanizminin sektor üzrə yaratdığı yeniliklər və yüksək effektivlik nəzərə alınaraq verilib. Daha bir nominasiya – "Insurtech of the Year" mükafatı üzrə ikincilik qurumun yeni texnologiya və proseslərin inkişafına verdiyi töhfələrə görə təqdim olunub.

Qeyd edək ki, "Global Insurtech Awards" – dünya üzrə "insurtech" (sığorta texnologiyaları) sahəsində qabaqcıl yenilikləri və texnoloji həlləri tanıtmaq məqsədilə keçirilən mükafatlandırma proqramıdır. Hər il Böyük Britaniyada keçirilən proqram çərçivəsində sığorta sahəsində innovativ həllərə imza atan qurumların (bürolar, şirkətlər, startaplar) texnoloji nailiyyətləri qiymətləndirilir. İSB-nin bu proqram çərçivəsində qazandığı uğurlar Azərbaycanın sığorta sisteminin beynəlxalq səviyyədə tanınmasına, ölkəmizin sığorta sektorundakı texnoloji yeniliklərinin dünya miqyasında təbliğinə töhfələr verəcək.

# Tacikistan "Azerspace-2"nin əhatə dairəsində

**Tacikistanın mobil operatoru "Azerspace-2" peykindən istifadə edəcək. Bununla bağlı Azərbaycanın Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Kosmik Agentlik ("Azərkosmos") Tacikistanın "ZET Mobile" mobil operatoru ilə əməkdaşlıq müqaviləsi imzalayıb.**



"Azərkosmos"dan verilən məlumata görə, "ZET Mobile" "Azerspace-2" peykindən istifadə etməklə Tacikistanın uzaq regionlarında yüksək keyfiyyətli rabitə xidmətlərinin təmin olunmasını təşkil edəcək. Bildirilib ki, Tacikistanda rabitə xidmətlərinə çıxış əksər hallarda iri şəhərlərlə məhdudlaşır. "Azərkosmos"la əməkdaşlıq isə bu ölkənin həm rəqəmsal infrastrukturuna, həm də ucqar bölgələrdə sosial-iqtisadi inkişafa töhfə verəcək.

Eyni zamanda, "ZET Mobile" mobil operatoru "Azerspace-2" peykinin xidmətlərindən istifadə etməklə müştərilərinə nəqliyyat vasitələrində, dövlət və özəl qurumlarda, eləcə də ucqar ərazilərdə rabitə və internet xidmətlərindən faydalanmaq imkanı yaradacaq.

Peşəkar fermerlər

# Dünyaya paylanan şirinlik...

## *Balçı qardaş, balın bol olsun!*

**... Onunla çoxdan tanışam. Müxtəlif tədbirlərdə, ayrı-ayrı mərasimlərdə həmişə mehriban görüşmüşük. Səmimi söhbətlərimiz olub. İşindən də danışmağı sevən adamdır. Zaqatalada kimi dindirsən onu yaxşı tanıyır. Bilirlər ki, heç vaxt boğazdan yuxarı danışan deyil, səmimi, gərəkli adamdır. Kiminsə əlindən tutmaqdan zövq alır.**






Zaqatalanın Yuxarı Tala kəndində doğulub. Rayon Arıçılar Assosiasiyasının sədridir. Deyəsən, söhbətin kimdən getdiyini bilmək üçün lap darıxdınız. Tələsməyin, tanış edəcəyəm. Adı Mövluddindir, familiyası da Qurbanəliyev. Babası da arıçı olub, atası da... Bu gün Zaqatalada hansı ağsaqqaldan soruşsan Qurban kişinin yetişdirdiyi bal barədə elə şirin danışar ki, o şirinliyi ağzında hiss edərsən. Oğlu Şaban da atasının yolu ilə gedib. Bilənlər yaxşı xatırlayırlar ki, 1969-cu ildə Zaqatalada arıçılıq sovxozu yaradılıb. Bax onda Şaban Qurbanəliyev orada briqadir işləyib, sonra baş arıçı olub. Arıçıların içində böyüyən Mövluddin hara getməliydi ki... Hərbi xidmətdən qayıdandan sonra o da əmək fəaliyyətinə həmin müəssisədə başlayıb, arıçı işləyib. Və nəhayət 1993-cü ilin əvvəlində özünün fermer təsərrüfatını yardıb.

Telefon nömrəsini neçə il bundan əvvəl rayon Dövlət Aqrar İnkişaf Mərkəzində olan bir tədbirdə almışam. Zəng vururam, cavab verir, kefini soruşuram. "Yaxşıyam,– deyir, – təsərrüfat adamıyam. İşimin üstündəyəm. "Görüşmək istədiyimi bildirirəm. Hazır olduğunu deyir. Bax, beləcə vədələşib, görüşürük. Özü də başqa yerdə yox, elə arıçılıq təsərrüfatının özündə.

Zarafata salır. "Fikirləşdim ki, arıların yanındakı söhbət də şirin olar", – deyir. Hələ neçə illər qabaq eşitmişdim ki, Mövliddin Amerika səfirinin dəvəti ilə Birləşmiş Ştatlarda olub. Soruşuram: "Bəlkə elə söhbətə bundan başlayaq?". "Qonağımsınız", – deyə bildirir. Siz nə desəniz, mən hazır. Beləcə söhbətə başlayır. Amerikanın ölkəmizdəki səfiri bizim bax, bu evimizdə dörd dəfə olub. Suyumuzu içib, çörəyimizi yeyib, balımızdan dadıb. 2006-cı ildə təcrübə mübadiləsi məqsədi ilə mənim Amerikaya getməyimi də o təşkil etdi. Böyük məmnuniyyətlə yola çıxdım. Ay yarım orada qonaq oldum. Xeyli arıçılıq təsərrüfatlarını gəzdim. Gizlətmirəm, zəngin təcrübə qazandım. Orada texnologiya tam başqa cürdür. Məlumat üçün bildirim ki, Amerikada bir arıçı 1500-2000 arıya baxa bilir. Biz də isə bu rəqəm aşağıdır.

Bu gün Zaqatalada 40 minə yaxın arı ailəsi var. Hazırda mən özüm 500 arı ailəsinə xidmət edirəm. Balımızın keyfiyyətinə söz ola bilməz. Bir vaxtlar xarici ölkələrə, hətta Yaponiyaya da bal ixrac etmişik. Sağ olsunlar, Kənd Təsərrüfatı Nazirliyi Bakıda tez-tez bal yarmarkaları, sərgilər keçirir. Biz də məhsullarımızı orada nümayiş etdiririk. Alıcılar çox razı qalırlar. Daimi müştərilərimiz də var ki, qapımızı tez-tez döyürlər. Çox yerləri gəzmişəm. Hara getmişəmsə özümlə mütləq bal da aparmışam. Satmağa yox a, pay verməyə. Bir sözlə, həmişə istəmişəm ki, dünyaya şirinlik paylayam.

Mövluddinlə söhbətdən o da məlum oldu ki, ilk dəfə Zaqatalada Qafqaz arısının genefondunun qorunması məqsədi ilə dağlarımızın zirvə yerində, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə təyin olunmuş izolə bölgəsində damazlıq təsərrüfatı yaradılıb. Təəccüblənməyin, bu gün qarın altında arılar var.

Mövluddin 2 oğul atasıdır. Böyük oğlu Turalın 35, kiçiyi Cəlalın isə 32 yaşı var. Hər ikisi ailə qurub, oğul-uşaq sahibidirlər. Onların nə işlə məşğul olduqlarını soruşuram. Sualımdan təəccüblənir. "Nə işlə məşğul olmalıdırlar ki, –deyir,– hər ikisi hətta gəlinlərim də yanımdadır. Biz fəxr edirik ki, arıçılar nəsliyik."

Yazıya sərlövhə qoymaq üçün çox da fikirləşmədim. Yadıma Mövluddinin yuxarıda dediyi sözlər düşdü. Odur ki, sərlövhəmi elə belə qoyduq: "Dünyaya paylanan şirinlik". Altından da yazdıq: "Balçı qardaş, balın bol olsun!"

*İlqar HƏSƏNOV,*
*XQ-nin bölgə müxbiri*

**Zaqatala**

# Çiyələk əkini Cəlilabadda gəlirli sahəyə çevrilir



**Cəlilabad rayonunda çiyələk şitili əkini davam edir. Rayon Aqrar İnkişaf Mərkəzindən verilən məlumata görə, bu il əkin sahələrinin 50-60 hektar artırılacağı gözlənilir. Bu səbəbdən də fermerlər növbəti mövsümdə sahələrdən bol məhsul götürməyə ümid edirlər.**

Xatırladaq ki, bu ilin məhsulu üçün rayon ərazisində 606 hektar sahədə çiyələk bitkisi əkilib. İndiyədək sahələrdən 16 min tondan çox məhsul yığılıb. Çiyələk sahələri üzrə hektarın orta məhsuldarlığı 26,16 ton təşkil edib ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 0,75 ton çoxdur.

Yığılan məhsul daxili bazarda satılmaqla yanaşı, Rusiya, Belarus və ərəb ölkələrinə də göndərilib.

# Kredit kartları ilə əməliyyatlar artıb

**Cari ilin yanvar–sentyabr aylarında Azərbaycanda kredit kartları ilə aparılan əməliyyatların həcmi 6 milyard 274 milyon manat təşkil edib. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 43,4 faiz və ya 1 milyard 899 milyon manat çoxdur.**



Hesabat dövründə kredit kartları ilə aparılan əməliyyatların 3 milyard 365 milyon manatı elektron ticarət vasitəsi ilə, 1 milyard 565 milyon manatı POS-terminallar vasitəsi ilə, 1 milyard 84 milyon manatı bankomatlar vasitəsi ilə, 250 milyon manatı isə ölkə xarici əməliyyatlar vasitəsi ilə həyata keçirilib.

Qeyd edək ki, 2024-cü il oktyabr ayının 1-nə ölkədə kredit kartlarının sayı 2 milyon 273 minə çatıb.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*




# “Yaşıl dünya” naminə həmrəylik






# “Yaşıl” texnologiyalar və qlobal davamlı inkişafa keçid

(əvvəli ötən sayımızda)

## Braziliya nədə və niyə dünya lideridir?

Braziliya təmiz enerji və “yaşıl” texnologiyaların inkişafında dünya lideridir. Dünyanın ən böyük iqtisadiyyatları arasında bu ölkə öz enerji balansında mədən yanacaqlarının ən aşağı payına malikdir. Bakıda keçiriləcək 29-cu iqlim konfransından sonra, 2025-ci ildə COP30-a evsahibliyinə hazırlaşan Braziliya enerji keçidi sahəsində qlobal gündəliyə rəhbərlik etmək üçün unikal imkana malikdir. Braziliyanın təmiz enerjinin inkişafındakı uğuru bir neçə əsas amilə əsaslanır.

Birincisi, ölkə öz enerji mənbələrini fəal şəkildə diversifikasiya edir, hidroenergetikadan asılılığı azaldır, külək, günəş və bioenerjinin payını artırır.

İkincisi, Braziliya bioyanacaqla maliyyə stimullarını və ekoloji davamlılıq tələblərini uğurla birləşdirən, dünyanın bioyanacaq istehsalının pionerlərindən sayılır.

Üçüncüsü, ölkə innovasiyalara xüsusi diqqət yetirir, çevik yanacaqla (flex-fuel) işləyən avtomobil texnologiyaları kimi, tullantılardan və qeyri–ərzaq bitkilərindən bioyanacaq hazırlayan qabaqcıl texnologiyaları inkişaf etdirir.

Braziliya təmiz texnologiyalara sərmayə cəlb etmək üçün beynəlxalq maliyyə institutları ilə fəal dialoq aparır, elektriklə işləyən avtomobillərin və akkumulyatorların istehsalı sahəsində Çinlə əməkdaşlığa üstünlük verir. Eyni zamanda, ölkə əhalisinin ən həssas təbəqələrinin maraqlarını nəzərə alan ədalətli və sərfəli enerji keçidini gerçəkləşdirməyə çalışır. Məsələn, ölkədə Kənd Təsərrüfatında Karbon Emissiyalarının Uyğunlaşması və Azaldılması Proqramı həyata keçirilir ki, bura da kiçik fermerlərə dəstək və kənd təsərrüfatı tullantılarından bioenerji istehsalı daxildir.

## Cənubi Afrikanın yaşıl keçidini ləngidən nədir?

Cənubi Afrika Misir, Efiopiya və Mərakeşlə birlikdə Afrikada bərpaolunan enerjinin aparıcı istehsalçıları sırasındadır. Bu ölkə son vaxtlar elektrik nəqliyyat vasitələrinin inkişafında əhəmiyyətli nəticələr əldə edir. 2024-cü ilin birinci rübündə elektrikli nəqliyyat vasitələrinin satışı 2023-cü ilin eyni dövrü ilə müqayisədə 82,7 faiz artaraq 3042 ədədə çatıb. Cənubi Afrika hökuməti bu sənayenin inkişafını dəstəkləyir, yeni investisiyalar üçün stimullar təqdim edir və hətta 2023-cü ilin dekabrında “Elektromobillərə dair Ağ Kitab” layihəsini təsdiqləyib.

Yeri gəlmişkən, Cənubi Afrika “yaşıl” texnologiyaların inkişafı üçün zəruri olan mühüm mineralların əhəmiyyətli ehtiyatlarına malikdir. Məsələn, platin qrupu metallarının dünya ehtiyatlarının təxminən 88 faizi bu ölkədədir. Bu minerallara artan tələbat iş yerlərinin açılması, iqtisadiyyatın şaxələndirilməsi və gəlirlərin artırılması imkanları yaradır. Bununla belə, Cənubi Afrikanın kömürdən istifadədən ləng çıxması və bərpaolunan enerjinin zəif yayılması səbəbindən ölkə iddialı iqlim məqsədlərinə çatmaqda çətinliklərlə üzləşir. Prezident yanında İqlim Komissiyasının 2024-cü ilin iyul ayında açıqladığı hesabata görə, Cənubi Afrika 2050-ci ilə qədər xalis sıfır karbon emissiyasına nail olmaq üçün illik bərpaolunan enerji potensialını 6 dəfədən çox artırmalıdır. Amma ölkədə hələ də kömürdən xilas olmaq tempi ilə bağlı konsensus yoxdur və kifayət qədər investisiyalar olmadığından yaşıl keçid ləngiyir.

## Rusiya yaşıl keçid trekində fəal addımlar atır

Rusiya milli davamlı inkişaf strategiyasının bir hissəsi kimi, yaşıl texnologiyaların inkişafı və tətbiqi istiqamətində fəal addımlar atır. 2019-cu ilin sentyabrında Rusiyanın Paris iqlim sazişini imzalaması ölkədə iqtisadi dekarbonizasiya üçün müasir tənzimləyici bazanın formalaşmasına səbəb oldu. Həmin ilin sonunda hökumət iqlim dəyişikliyinə uyğunlaşma üzrə milli planı təsdiqlədi. Proqrama əsasən, ölkə 2060-cı ilə qədər karbon neytrallığına nail olmaq planlarını açıqladı. Bu məqsədləri gerçəkləşdirmək üçün 2021-ci ilin iyulunda “İstixana qazı emissiyalarının məhdudlaşdırılması haqqında” Qanun qəbul edildi və oktyabr ayında 2050-ci ilə qədər aşağı karbon inkişafı strategiyası təsdiqləndi.

Emissiyaların monitorinqi sistemi, bir sıra regionlarda karbon poliqonlarının təşkili layihələri işə salındı. 2022-ci ilin sentyabr ayından başlayaraq Saxalin vilayətində 2025-ci ilə qədər karbon neytrallığına nail olmaq üçün eksperiment aparıldı. “Ekologiya” milli layihəsində iqtisadiyyatın 2024-cü ilə qədər “yaşıl” transformasiyası üçün kompleks tədbirlər nəzərdə tutulub. Hazırda həmin milli layihəni əvəz edəcək və onun məqsəd və vəzifələrinin davamlılığını reallaşdıracaq “Ekoloji rifah” milli layihəsinin hazırlanması davam etdirilir.

Perspektivli “yaşıl” enerji daşıyıcısı hesab olunan maye qaz üçün lazımi nəqliyyat və saxlama infrastrukturu artıq mövcuddur. Yeri gəlmişkən, bu enerji daşıyıcısı Qərb tərəfindən sanksiyalara məruz qalmayıb. Rusiyada dövlətin bərpaolunan və hidrogen enerjisinin inkişafını stimullaşdırmasına baxmayaraq, indiyədək enerji balansında bərpaolunan enerji payın elə də böyük deyil. Belə ki, 2024-cü ildə külək və günəş enerjisi istehsalı 1 faizdən az olacaq. Amma “yaşıl” maliyyələşdirməni dəstəkləmək üçün milli taksonomiya hazırlanaraq Mərkəzi Bank tərəfindən müvafiq qayda və standartların tətbiqinə başlanıb.

*İlqar RÜSTƏMOV*
*XQ*

# Ekoloji həmrəylik: ağacəkmə marafonu



**Ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov bu ilin yanvar ayında ekoloji məsələlər üzrə işçi qrupun Zəngilanda keçirilən iclasında “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində ölkə ərazisində 5 milyon ağac və kol tinginin əkilməsinin nəzərdə tutulduğunu bildirmiş, işin çox hissəsinin nazirlik tərəfindən həyata keçiriləcəyini, ağacların 3 milyonuna yaxınını təmsil etdiyi qurum, 2 milyonunu isə ölkənin icra hakimiyyətləri, nümayəndəliklər və digər icra orqanlarının əkəcəyini demişdi.**

Ötən müddətdə respublikada bir istiqamətdə genişmiqyaslı aksiyalar keçirilib, ölkə ərazisində yaşıllıq sahələrinin genişləndirilməsinə, ətraf mühitin qorunmasına və qlobal iqlim dəyişmələrinin qarşısının alınmasına töhfə vermək üçün ağac və kol tinglərinin basdırılması kampaniyası uğurla reallaşdırılıb. Təkcə cari ilin oktyabrın 18–27-də 85 şəhər və rayon icra hakimiyyətləri “Yaşıl bir dünya üçün həmrəy olaq!” şüarı altında 2401,0 hektar ərazidə 1 milyon 600 mindən çox ağac və kol cinslərinin əkilməsini reallaşdırıb.

Ölkənin bütün bölgələrini əhatə edən və 10 gün ərzində keçirilməsi nəzərdə tutulan aksiya zamanı Bakı şəhərində 619 min, Naxçıvan Muxtar Respublikasında 89 min, digər şəhər və rayonlarda isə 903 min ağac əkilib. Bölgələrdə yerli iqlimə uyğun olması və quraqlığa davamlılığı nəzərə alınmaqla, əkilən ağacların 749 min ədədi, əsasən, həmişəyaşıl meşə ağacları, 692 min ədədi dekorativ kollar, 170 min ədədi isə meyvə ağacları olub.

Ümumiyyətlə, aksiya şəhər və rayon icra hakimiyyətlərinin müəyyənləşdirildiyi 540 ünvanda həyata keçirilib, yeni əkilən ağaclara aqrotexniki qulluq göstərilməsi, onların qorunması və suvarılması ilə bağlı vacib təşkilati və texniki tədbirlər diqqətdə saxlanılıb.

Ölkə ərazisində yaşıllıq sahələrinin genişləndirilməsi, ağac və kol tingləriinin əkilməsi ekoloji tarazlığın qorunmasına, həmçinin beynəlxalq birliyin etibarlı tərəfdaşı kimi iqlim dəyişikliyinin nəticələri ilə mübarizəyə dəyərli töhfə verir.

# “COP29 və mədəni perspektivlər

**Oktyabrın 31-də ADA Universitetində “COP29 və mədəniyyət: iqlim dəyişikliyinin mədəni ölçüləri” mövzusunda konfrans keçirilib.**



Konfransın məqsədi mədəniyyətin və iqlim dəyişikliyinin qarşılıqlı əlaqəsini araşdırmaq, mədəni təcrübələrin və ənənələrin ətraf mühit dəyişikliklərinə təsirlərini diqqətə çatdırmaqdır.

ADA Universitetində İnkişaf və Diplomatiya İnstitutunun ixtisasartırma proqramlarının rəhbəri Nərgiz İsmayılovanın moderatorluğu ilə gerçəkləşən konfransda çıxış edən mədəniyyət nazirinin müavini Fərid Cəfərov Azərbaycanın həm milli, həm də beynəlxalq səviyyədə ətraf mühit gündəliyinə sadiq olduğunu söyləyib. Qeyd olunub ki, Prezident İlham Əliyevin Sərəncamı ilə 2024-cü il ölkəmizdə “Yaşıl dünya naminə həmrəylik ili” elan edilib: “Bu addım COP29-u hamı üçün davamlı inkişaf və yaşıl gələcəyi inkişaf etdirən təsirli hadisəyə çevirmək əzmimizin göstəricisidir”. Fərid Cəfərov çıxışında gəncləri iqlim təşəbbüslərində fəal olmağa dəvət edib.

Ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev deyib: “Azərbaycan iqlim dəyişikliyinin təsirini yumşaltmaq üçün bərpaolunan enerji mənbələrindən istifadənin artırılması, daha səmərəli yaşıl texnologiyalarının inkişafı kimi bir sıra tədbirlər həyata keçirib. Təkcə 2023-cü il ərzində ölkə ərazisində 4 milyona yaxın ağac əkilib, cari ildə 5 milyon ağacın əkilməsi hədəflənib”.

Rauf Hacıyev vurğulayıb ki, bu il beynəlxalq ictimaiyyətin diqqəti həm də ölkəmizə, xüsusən ətraf mühitin qorunması və iqlim dəyişikliklərinin qarşısının alınması istiqamətində fəaliyyətlərə yönəlib. Qlobal iqlim dəyişikliyi ilə bağlı müzakirələrin ən yüksək platforması olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyinin ölkəmizə həvalə edilməsi yüksək etimadın və inamın növbəti göstəricisi, beynəlxalq təşkilatlarla formalaşdırılmış uğurlu əməkdaşlığın nəticəsidir.

Digər çıxış edənlər mədəni perspektivlərin iqlim fəaliyyətinə inteqrasiya edilməsi ilə bağlı strategiyalar haqqında fikirlərini bildiriblər.

Sonda konfrans iştirakçılarının sualları cavablandırılıb.

# Naxçıvanda SES-lərin gücü 2 dəfə artacaq

## *Bölgədə 10 təmiz stansiya qurulub*

**Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin mətbuat xidmətinin rəhbəri Mətin Abbaslının bildirdiyinə görə, yaxın gələcəkdə gücü 36 meqavatt olan Ordubad və gücü 15,6 meqavat olan Tivi su elektrik stansiyaları tikildikdən sonra həmin stansiyalar üzrə ümumi generasiya gücü 120 meqavata çatdırılacaq. Hazırda muxtar respublikada su elektrik stansiyalarının ümumi generasiya gücü 68, 4 meqavat təşkil edir.**




Qeyd edək ki, bu gün Naxçıvanda 5 su, 3 günəş, 1 külək və 1 külək–günəş hibrid elektrik stansiyası fəaliyyət göstərir. Hazırda stansiyalarda istehsal olunan elektrik enerjisinin hesabına muxtar respublikada “yaşıl” enerjinin payı da aylar üzrə artır. Təkcə 2024-cü ilin sentyabr ayında istehsal olunan ümumi elektrik enerjisinin 35 faizi alternativ və bərpaolunan enerji mənbələrinin payına düşüb. Ötən ilin 9 ayı ilə müqayisədə isə alternativ və bərpaolunan enerji mənbələrində istehsal olunan elektrik enerjisinin payı 20 faizə yaxın artıb.

Belə ki, 2023-cü ilin doqquz ayında “yaşıl” enerjinin istehsal payı 35,1 faiz olduğu halda, 2024-cü ilin müvafiq dövründə bu rəqəm 53 faizə yüksəlib. Hazırda ümumi elektrik enerjisinin 55 faizi “yaşıl” enerjinin hesabına təmin olunur.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*




# “Yaşıl dünya” naminə həmrəylik



# ADA Universitetində iqlim dialoqu

**Dünən ADA Universitetində İqtisadiyyat Nazirliyinin və BMT-nin ölkəmizdəki nümayəndəliyinin təşkilatçılığı ilə “Gələcəyin sədaları: iqlim fəaliyyəti və qlobal məqsədlərə yönələn səylərin əlaqələndirilməsi” mövzusunda dayanıqlı inkişaf məqsədləri dialoqu keçirilib.**




Tədbirdə BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva çıxış edərək bildirib ki, təmsil etdiyi qurum son 10 ayda ən böyük iqlim konfransına ev sahibliyinə hazır olmaq üçün COP29 Sədrliyinə lazımi dəstək göstərib. BMT-nin hər zaman qlobal həllər üçün ölkələrin bir araya gəldiyi məkan olduğunu vurğulayan rezident əlaqələndiricinin sözlərinə görə, Azərbaycan COP29-a ev sahibliyi edən ölkə kimi yeni milli töhfələri COP29-dan əvvəl təqdim edəcək. “Biz iqlim maliyyəsini artırmalıyıq. COP29 gündəliyində bu, əsas mövzu olacaq. BMT-nin Baş katibi COP29-un uğurla həyata keçirilməsi istiqamətində iqlim dəyişikliyi ilə bağlı məlumatlılığı artırmaq üçün özəl sektor, akademik dairələr, gənclər və digər tərəfdaşlar... bəqələr ilə müzakirələr aparır. BMT olaraq bu günədək 29 iqlim toplantısı keçirmişik və sonuncusu mavi zonada keçiriləcək. BMT iqlim gündəliyini dəstəkləyəcək və növbəti mərhələdə də bu mövzular əsas yer tutacaq”, – deyə o əlavə edib.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov çıxışında bildirib ki, 2003-cü ildə Azərbaycanda 26,2 milyard kubmetr su ehtiyatı formalaşıb ki, bunun da 17,8 milyard kubmetri yerüstü, 8,4 milyard kubmetri isə yeraltı su ehtiyatlarının payına düşür. Ötən il ölkəmizdə su ehtiyatlarından istifadənin 9,2 milyard kubmetr təşkil etdiyini diqqətə çatdıran komitə sədrinin sözlərinə görə, bunun 3,2 milyard kubmetri suyun mənbədən təsərrüfatlara çatdırılması zamanı infrastruktur, buxarlanma, sudan səmərəsiz istifadə və qanunsuz qoşulmalar səbəbindən itkiyə sərf olunub.

İqtisadiyyat nazirinin müavini Səməd Bəşirli çıxış edərək deyib ki, Azərbaycanda iqlim dəyişiklikləri və onların mənfi təsirlərinə qarşı səmərəli işlər görülür, “yaşıl keçid” istiqamətində məqsədyönlü tədbirlər gerçəkləşdirilir. Ölkəmizin COP29 tədbirinə ev sahibliyi etməsinə sayılı günlər qaldığını xatırladan nazir müavini deyib ki, BMT-nin bu nüfuzlu tədbirinə ev sahibliyini Azərbaycana həvalə etməsi beynəlxalq aləmdə ölkəmizə olan inamın növbəti göstəricisidir və bu hadisə adı çəkilən qurum ilə əməkdaşlığımızda yeni səhifə açacaq.

Energetika nazirinin müavini, COP29-un baş icraçı direktoru Elnur Soltanov tədbirdəki çıxışında deyib ki, ölkəmizdə 2050-ci ilə qədər “xalis sıfır emissiya”-ya nail olmaq üçün 40 meqavat-saatdan çox günəş və külək enerjisi lazımdır. Bu, Azərbaycanda qurulmuş bütün potensialın 5 qatı deməkdir. Onun sözlərinə görə, 2050-ci ildə Azərbaycanın elektrik enerjisi istehlakının 3 dəfə artaraq 89 teravat-saata çatması gözlənilir.

Ölkəmizdə xalis sıfır karbon emissiyasına çatmaq üçün 200 milyard dollar investisiya tələb olunduğunu vurğulayan nazir müavini bildirib ki, iqtisadiyyatımızın “yaşıllaşacağı” təqdirdə xalis gəlirlərimiz də artacaq. “Azərbaycan iqtisadiyyatının payı dünya iqtisadiyyatında elə də böyük deyil. Ancaq “yaşıl keçid” üçün olduqca böyük məbləğlər tələb olunur. Ona görə iqlimlə bağlı milli öhdəliklər çox vacibdir. Biz iddialı iqlim fəaliyyət planı ortaya qoyacağıq”, – deyə o əlavə edib.

# Təmiz ekosistem və ərzaq təhlükəsizliyi

**COP29-un Azərbaycanda aqrar siyasətin qabaqcıl beynəlxalq təcrübələrə uyğunlaşdırılmasında mühüm rolu olacaq. Bunu kənd təsərrüfatı naziri Məcnun Məmmədov “Avropa və Mərkəzi Asiya ölkələrinin aqro-ərzaq sektorunda iqlim tədbirlərinin gücləndirilməsi” mövzusunda keçirilən regional iqlim konfransında bildirib.**



Onun sözlərinə görə, Azərbaycan 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarını 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını, elektrik enerjisi istehsalında isə bərpaolunan enerji mənbələrinin payını 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.Qarabağ və Şərqi Zəngəzurun, eləcə də Naxçıvan Muxtar Respublikasının “yaşıl enerji zonası” elan olunduğunu diqqətə çatdıran nazir deyib ki, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritet təşkil edir: “Həmin ərazilərdə “ağıllı şəhər”, “ağıllı kənd” kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur. Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə 29-cu Çərçivə Konvensiyası üzrə Tərəflərin Konfransına bu il Azərbaycan ev sahibliyi edəcək. COP29-un Azərbaycanda aqrar və ekoloji siyasətlərin qabaqcıl beynəlxalq təcrübələrə, texnoloji mübadilə və innovasiyalara uyğunlaşdırılmasında mühüm rolu olacaq”.

M. Məmmədov bildirib ki, bu istiqamətdə innovativ yanaşmaların və alətlərin istifadəsi ətraf mühitin qorunması ilə yanaşı, kənd təsərrüfatının davamlılığına, ekoloji təmiz ərzaqla təminatına, habelə kənd yerlərində rifahın artmasına töhfə verəcək.

# BMT-nin “istiləşmə” narahatlığı artır

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stil ölkələrin iqlim dəyişikliyi sahəsindəki öhdəliklərinə dair 2030-cu ilə qədərki dövrü əhatə edən hesabatın təqdimat mərasimində bildirib ki, bütün ölkələrin milli fəaliyyət planları iqlim dəyişikliyinin fəsadlarının, xüsusilə də onun iqtisadiyyata və milyardlarla insanın həyatına vurduğu zərərin qarşısını almaq üçün tələb olunan addımları yetərincə əhatə etmir.**

O, açıqlamasının davamında deyib: “Bu sahədə hazırlanacaq daha cəsarətli yeni milli fəaliyyət planları iqlim dəyişikliyinin yaratdığı böhranı aradan qaldırmağa və ayrı-ayrı ölkələrin əhalisinin həyatının çiçəklənməsinə səbəb olacaq. Bu məsələ, eyni zamanda, ölkələrə sərmayələrin həcmini artıracaq, iqtisadi artıma və iş yerlərinin yaradılmasına və atmosfer çirklənməsi probleminin həcminin azaldılmasına gətirib çıxaracaq”.



S.Stil daha sonra qeyd edib ki, iqlim dəyişikliyi problemlərinin həlli insanların sağlamlığının qorunması, xərclərin azaldılması, ekoloji cəhətdən təmiz enerjinin əlçatanlığı və digər məsələlərdə üstünlük əldə etməyə imkan verəcək. İcraçı katibin qənaətincə, iqlim dəyişikliyinin qarşısının alınması üzrə hazırkı planların tam həcmdə reallaşdırılması 2030-cu ildə atmosferə 51,5 qiqaton həcmində (2019-cu ildən cəmi 2,6 faiz aşağı) tullantıların atılması ilə nəticələnəcək. O, eyni zamanda, bildirib ki, atmosferin yuxarıda göstərilən həcmdə istixana qazları ilə çirkləndirilməsi hər ölkənin həm insan amili, həm də iqtisadi baxımdan zərər çəkməsi ilə nəticələnəcək.

BMT rəsmisi çıxışında əlavə edib ki, iqlim Dəyişmələri üzrə Hökumətlərarası Ekspert Qrupunun hesabatına görə, 2030-cu ildə atmosferə atılacaq istixana qazlarının həcmi 2019-cu ilə nisbətən 43 faiz azalacaq. BMT növbəti il ərzində bir sıra ölkələrə həmin planların icrası prosesində dəstək göstərəcək: “2035-ci ilədək qlobal səviyyədə atmosferə atılacaq istixana qazlarının həcminin 2019-cu ilə nisbətdə 60 faiz azaldılması planlaşdırılır. Bu amil qlobal istiləşmə səviyyəsinin 1,5 ° həcmində azaldılması deməkdir. İqlim fəlakətləri getdikcə dərinləşdiyindən burada hər dərəcə xüsusi önəm daşıyır.

İqlim dəyişikliyi üzrə milli fəaliyyət planlarının növbəti mərhələsi iqlim fəaliyyəti sahəsində irəliləyişin əldə olunmasına səbəb olacaq. Bu planların iqtisadiyyatı və istixana qazlarını əhatə edən tullantılar səviyyəsi, eləcə də temperatur həcminin 1,5 faiz saxlanılması ilə bağlı yeni və məqsədyönlü hədəfləri müəyyənləşdirilməlidir. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası digər strukturları ilə geniş əməkdaşlıq etməklə həssas qrupa aid ölkələrə geniş spektrli dəstək təmin etməyi nəzərdə tutur. İqlim dəyişikliyi ilə mübarizə üzrə milli fəaliyyət planları bu yüzilliyin ən önəmli sənədlərindən biri olacaq”.

S.Stil bildirib ki, BMT növbəti il ərzində bir sıra ölkələrə həmin planların icrası prosesində dəstək göstərəcək. Onların yerinə yetirilməsi və bu prosesə dünya ictimaiyyətinin cəlb olunması üzrə addımlar Bakıda keçiriləcək COP29-da elan ediləcək.

İcraçı katib çıxışında iqlim konfransında iştirak edəcək ölkələrin həm BƏƏ, həm də COP28-də əldə olunan öhdəliklərin, bərpaolunan enerji mənbələrindən istifadənin təşviqi, qlobal adaptasiya məqsədləri, eləcə də tükənməkdə olan yanacaq mənbələrindən imtina etməklə bağlı öhdəliklərə sadiqliyini bir daha nümayiş etdirəcəklərini deyib.

Bildirib ki, COP29 inkişaf etməkdə olan ölkələrin ehtiyaclarının müəyyənləşdirilməsi ilə iqlim maliyyəsi sahəsində konkret və məqsədyönlü nəticələrin qeydə alınmasına şərait yaratmalıdır. Müəyyən edilməlidir ki, bu cür dəstək hər ölkənin və dünya iqtisadiyyatının iqlim dəyişmələrinin zərərli təsirlərindən əsas qorunma üsuludur. Milli öhdəliklərin sonuncu mərhələsi qarşısıalınmaz dəyişikliklərin baş verdiyinə işarə edir. Yeni öhdəliklər isə novbəti il üçün bərpaolunan enerji mənbələrindən istifadə, habelə dünyada aşağı tullantı həcmli iqtisadiyyata keçid sayəsində uğurlu nəticələrin əldə olunmasını təşviq etməlidir.

# Gəncədə “yaşıl” konfrans

**Gəncə Şəhər İcra Hakimiyyəti, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və onun Aqrar Problemlər İnstitutunun birgə təkilatçılığı ilə ölkənin müxtəlif elmi-tədqiqat müəssisələri rəhbərlərinin, mütəxəssis və alimlərinin iştirakı ilə AMEA Gəncə bölməsində elmi-praktik kontrans keçirilib.**




“Dövrün qlobal problemləri: iqlim dəyişiklikləri” mövzusunda məclisin aparıcısı AR KTN Bitki Mühafizə və Texniki Bitkilər İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, aqrar elmlər doktoru, professor İbrahim Cəfərov bu elmi toplantıda müzakirə olunacaq məsələlərin qlobal miqyasda dünyanı təhdid edən iqlim anomaliyası, ekoloji böhran, eləcə də lokal hərbi konfliktlər səbəbindən təbii resursların, ərzaq təminatının azalması, aqrar istehsalatın kəmiyyət və keyfiyyət tənəzzülü kimi məsələlərlə bağlı olduğunu söyləyib. Alim vurğulayıb ki, problemlər ölkəmizin, onun bölgələrinin həyati məsələləri üzrə qarşıda duran vəzifələri əhatə edir. O,iştirakçıları elmi müəssisələrdə tədqiqatları daha da genişləndirməyə və öz fəaliyyətlərini əlaqələndirməyə çağırıb.

AR ETN Aqrar Probelmlər İnstitutunun direktoru Sədaqət Adıgözəlova konfransın ölkə prezidentinin cari ili “Yaşıl Dünya naminə Həmrəylik İli” elan etməsinin dövrün qlobal problemlərinə müstəqil dövlət kimi Azərbaycanın həssas yanaşmasının və hər sahədə çalışan vətəndaşlarımızın bu yöndə öz töhfələrini verməsinin təzahürü olduğunu qeyd edib.

Şəhər İcra Hakimiyyətinin şöbə müdiri Yadigar Bədəlov çıxış edərək, Gəncənin elm ocaqlarında, o cümlədən AMEA yerli bölməsində keçirilən tədbirlərdə daim həvəs və maraqla iştirak etdiyini vurğulayıb, bu konfransın da yüksək səviyyədə hazırlanmasına görə təşkilatçılara, həmçinin bölmə sədri, akademik Fuad Əliyevə minnətdarlığını bildirib.

Konfransın açılışında AR ETN Bioresurslar İnstitutunun direktoru, kimya üzrə fəlsəfə doktoru, dosent İmran Qasımov, AR KTN Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun direktoru, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Elmar Allahverdiyev, AR KTN Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun direktoru, biologiya üzrə fəlsəfə doktoru, dosent İlham Qaraqurbanlı, AR KTN Əkinçilik İnstitutunun direktoru, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Faiq Xudayev, AR KTN Üzümçülük və Şərabçılıq İnstitutunun direktoru, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Vüqar Səlimov, AR KTN Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun direktoru, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Mahir Hacıyev, Aqrar Sığorta Fondunun Qazax-Tovuz Regional Filialının rəhbəri Valeh Əsədov, Göygöl Milli Parkının direktoru Fuad Quliyev və başqaları çıxış edərək maraqlı təkliflər irəli sürmüşlər.

“İşğaldan azad olunmuş ərazilərin su ehtiyatları və ondan istifadə potensialı”, “Qlobal iqlim dəyişikliklərinin pomidor bitkisinin istixanalarda yetişdirilməsinə təsiri”, “Azərbaycan əhalisində qocalma prosesinin bioloji və sosial aspektlərinin tədqiqi və sağlam yaşlanma strategiyalarının inkişafı”, “İqlim dəyişikliklərinin ətraf mühitə və insan sağlamlığına təsiri”, “Deqradasiyaya uğramış torpaqların keyfiyyətinin ekoloji normallaşdırılması və bərpa edilməsi yolları” və digər maraqlı mövzuları əhatə edən məruzələr dinlənilib.

Konfransa beş istiqamət üzrə ümumilikdə 72 elmi məruzə təqdim edilib və iştirakçıların bir çoxuna sertifikatlar verilib.

*Hamlet QASIMOV,*
*XQ-nin bölgə müxbiri*

# Azərbaycanda 3 “təmiz” enerji mərkəzi yaradılır

**Azərbaycanın bərpaolunan enerji potensialının hərəkətə gətirilməsi istiqamətində reallaşdırılan mühüm layihələrin icrası üzrə işlər qrafikə uyğun davam etdirilir. Bu da yeni “yaşıl” enerji mənbələrinin vaxtında istifadəyə verilməsinə imkan yaradacaq. Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkəti tərəfindən inşa ediləcək 445 meqavat gücündə Biləsuvar, 315 meqavat gücündə Neftçala günəş elektrik stansiyaları və 240 meqavatlıq Abşeron–Qaradağ külək elektrik stansiyası 2026-cı ildə istifadəyə veriləcək.**



Bu barədə Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin rəhbəri Cavid Abdullayev məlumat verib. Agentlik rəhbərinin sözlərinə görə, Biləsuvar və Neftçala günəş elektrik stansiyalarının 2026-cı ilin aprel ayının sonuna qədər istifadəyə verilməsi gözlənilir. 240 meqavat gücündə Abşeron–Qaradağ külək elektrik stansiyasının istismara daxil edilməsi isə həmin ilin sonuna nəzərdə tutulub.

Xatırladaq ki, bu ilin iyun ayında keçirilən Bakı Enerji Həftəsində “Masdar” şirkəti ilə əməkdaşlıq çərçivəsində sözügedən elektrik stansiyalarının təməli qoyulub. Həmin layihələr hesabına il ərzində 2 milyard 305 milyon kilovat-saat elektrik enerjisinin istehsalı gözlənilir ki, bununla da 496 milyon kubmetr təbii qaza qənaət olunacaq, 1 milyon tona yaxın karbon emissiyasının qarşısı alınacaq. Yeri gəlmişkən, Nazirlər Kabinetinin müvafiq qərarları ilə günəş elektrik stansiyalarının tikintisi ilə əlaqədar Neftçalada 973 hektar, Biləsuvarda 1454 hektar, külək elektrik stansiyasının tikintisi ilə bağlı isə Abşeron və Qaradağ rayonlarının ərazilərində 34,5 hektar torpaq sahəsi bərpaolunan enerji mənbələrinin əraziləri kimi müəyyən edilib.

Biləsuvar rayonunda 445 meqavat gücündə “Biləsuvar Solar SPV” Günəş Elektrik Stansiyasının inşası layihəsinin ümumi dəyəri 380 milyon ABŞ dolları təşkil edir. Bu vəsaitin 100 milyon ABŞ dollarını Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) uzunmüddətli kredit olaraq ayıracaq.

Neftçala rayonunda 315 meqavat gücündə “Banka Solar” Günəş Fotoelektrik Stansiyasının tikintisi layihəsinin ümumi dəyəri isə 280 milyon ABŞ dolları təşkil edir. Bu stansiyasının layihələndirilməsi, tikintisi və istismarı üçün AYİB 80 milyon ABŞ dollarına qədər uzunmüddətli kredit ayıracaq.

Hazırda “Biləsuvar Solar SPV”, “Banka Solar” və “Abşeron” külək elektrik stansiyalarının inşasını nəzərdə tutan və ümumi dəyəri 294,5 milyon ABŞ dolları təşkil edən Dünya Bankının Azərbaycanda bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi layihəsinin – AZURE icrası ilə bağlı da hazırlıq işləri gedir.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

**Milli Azərbaycan Ədəbiyyat Muzeyi – 85**

# Söz məbədgahı, sənət saxlancı

**İkinci Dünya müharibəsi səbəbindən açılışı 1945-ci ilədək yubadılmış muzey tədricən zənginləşdirilib və hazırda AMEA-nın Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi kimi dünyada tanınan mədəni irs və elmi tədqiqat ocaqlarından birinə çevrilib.**

Düz 85 il öncə Azərbaycan SSR Xalq Komissarları Soveti tərəfindən muzeyə çevrilməsi qət edilən bu bina lap əvvəllər hüdudları İçərişəhərdən kənara çıxmayan Bakının həndəvərində karvansara olub, bir müddət sonra tikiliyə əl gəzdirilərək, 2-ci mərtəbəsi ucaldılıb. Mülkün yeni sahibi Bakı varlılarından olan Hacıağa Dadaşov buranı "Metropol" otelinə çevirib. 1918–1920-ci illərdə AXC hökumətinin əməkdaşları burada yaşayıblar, sonra Azərbaycan Həmkarlar İttifaqları Şurası burada yerləşib.



Srağagün həmkarım İlqar Həsənovla əzəmətli memarlıq nümunəsi kimi göz oxşayan bu binaya – ədəbiyyat və mənəviyyat tariximizi yaşadan muzeyin ziyarətinə getdik. İndi bura Bakının tam mərkəzi sayılan çox baxımlı bir məkandır. Cazibədar görünüşü göz-könül oxşayır. Mavi-yaşıl kaşılarla süslənmiş eyvanına, Şərqin 6 görkəmli söz ustadının – Füzulinin, Vaqifin, M.F.Axundovun, Natəvanın, C.Məmmədquluzadənin və C.Cabbarlının möhtəşəm heykəlləri qoyulmuş tağlarına baxdıqca baxmaq istəyirsən. Xarici qonaqlar bu fonda böyük heyranlıqla şəkil çəkdirirlər.

Yadıma düşdü ki, mən ilk dəfə burada 65 il əvvəl, Sumqayıtda 5-ci sinifdə oxuduğum vaxt olmuşam. Onda rəhmətlik Müzəffər müəllim bizi Bakıya ekskursiyaya gətirmişdi. Təzə açılmış metro, Tarix və İncəsənət muzeyləri ilə bərabər, Nizami muzeyi də hər birimizdə zəngin təəssürat yaratmışdı. Buradakı qədim və müasir kitablar, yağlı boya ilə çəkilmiş orijinal rəsmlər, portretlər, klassiklərin əlyazmaları və şəxsi əşyaları (o cümlədən Xalq şairi Səməd Vurğunun külqabıda sönmüş son papirosu, saçından qopub masanın üstünə düşmüş bir ağ teli) bizə ecazkar təsir bağışlamışdı...

Muzeyin direktoru, akademik Rafael Hüseynovla görüşümüzdə onun dilindən bu məbədgah barədə o qədər maraqlı faklar öyrəndik ki, necə deyələr, böyük bir bəyana sığmaz. Bir daha şahidi olduq və qürur duyduq ki, ekspozisiya xeyli zənginləşərək, zərgər sevgisi və dəqiqliyi ilə qurulub.

Bizi ən çox təsirləndirən məqamlardan biri: Rafael müəllim 1934-cü il noyabrın əvvəlində Paris ətrafında vəfat etmiş siyasi mühacir, görkəmli dövlət xadimi –AXC Parlamentinin ilk sədri, 2-ci Xarici işlər naziri Əlimərdan bəy Topçubaşovun Sen Klu qəbiristanlığındakı məzarına ömürlük qalma haqqını tanıtdırması, bərpası barədə bilgilər verdi. Dedi ki, 2000-ci illərin əvvəllərində Parisdə yaşayan soydaşlarımızın ona narahatlıqla söylədiklərinə görə, bəzi millətçi ekstremistlər tərəfindən üstü ərəb yazılı qəbirlərə (Topçubaşovun da məzar daşında ərəbcə ayələr var) qarşı təxribatlar törədilə bilərdi. Dərhal işə başlayan akademik məzar daşının dəyişdirilməsi üçün Fransanın müvafiq qurumlarından zəruri icazələri alıb, Bakıda Topçubaşovun yeni qəbirüstü abidəsini hazırladırıb. Millət fədaisinin portretinin altında onun dilindən Azərbaycan dilində verilmiş "Bir yolumuz var – istiqlal!" cümləsi yer alıb, onun altında da ilk Məclisi-Məbusanımızın sədrinin imzası, ilk milli parlamentimizin möhürü. Sinə daşında isə Azərbaycanın gerbi nəqş edilib.

Onun kimi vətənpərvər oğulların sayəsində Parisdə Azərbaycanın rəmzi ünvanlarından biri – Topçubaşovun məzarı indi ideal səviyyədədir. Köhnə məzar daşı isə Vətənə gətirilib və indi Ədəbiyyat muzeyində qorunub saxlanır. Biz muzeyi gəzərkən həmin guşədə də ayaq saxlayıb, Topçubaşovun ruhuna layiqincə sayğı göstərilməsindən məmnunluq duyduq.

Azərbaycan ədəbiyyatının Baş sarayı – Nizami muzeyi əsl ziyarətgah olmaqla yanaşı, elmi mərkəz kimi də tanınır. Burada klassiklərin yadigar qoyduğu söz yatırı muzeyin sayəsində artıq təkcə Azərbaycanınkı olmaqla məhdudlaşmır, ümumbəşəri dəyər səciyyəsi daşıyır. Bu muzey həm də dahilərimizi bir-birinə qovuşdurub – gəlib burada bir-biri ilə qonşu olublar.

Muzeydə çalışan gənc tədqiqatçılardan bir çoxu doktorantura və elmi inkişaf şöbəsinin xəttilə dissertasiyalar yazıb, uğurla müdafiə ediblər. Burada təşkil olunan attestasiyaların sayəsində onlarla gənc elmi dərəcə alıb. Elmi fondlar şöbəsində muzeyin kolleksiyalarının komplektləşdirilməsi, müxtəlif fond bölmələrinə aid arxiv materialları üzərində iş aparılır. Ədəbi layihələr və nəşrlər şöbəsinin əsas fəaliyyət istiqamətləri isə müxtəlif ədəbi məclislərin, görüşlərin, yubileylərin keçirilməsi üçün zəruri işlər aparmaq, bununla bağlı müvafiq nəşrlər hazırlamaq, muzeyin müxtəlif müəssisələrlə əlaqələrini qurmaq, muzeydə keçirilən respublika və Beynəlxalq konfransların təşkilini təmin etmək, Muzeyin "Risalə. Elmi araşdırmalar jurnalı"nın nömrələrini nəşrə hazırlamaqdır.

Dediyimiz kimi, bir vaxtlar bura karvansara olub, qonaqlara qapı açıb. İndi də Azərbaycanın söz-sənət karvanı bu binada məskunlaşdırılıb. Daha 2 mərtəbə boy atan bina daim qonaqlı-qaralı olur. 2004-cü ildə Prezident İlham Əliyevin bilavasitə diqqəti ilə genişləndirilmiş təmir-bərpa işləri gerçəkləşdirilib. Ekspozisiya ən yeni texnologiyanın tətbiqi ilə müasir muzeyçilik tələbləri səviyyəsində qurulub.

Nizami muzeyinin eksponatları sırasında Azərbaycan ərazilərindəki qazıntılar zamanı aşkarlanmış rəsmli qablar, kaşılar, Nizaminin məzarından tapılmış tirmə parça, klassiklərimizin miniatürlü əlyazma divanları, Nəsiminin türbəsindən götürülmüş bir ovuc torpaq, Füzulinin əl xətti, Şuşanın qurucusu



Pənahəli xanın üstü "Quran" ayələri ilə naxışlanmış "Güllabətmaz" köynəyi nadir saxlanclar olmaları ilə maraq kəsb edir. Qədim xalçalar, Natəvanın tikmələri, Aleksandr Dümanın ona bağışladığı şahmat taxtasından qalma fiqurlar, Mirzə Fətəli Axundovun əlyazmaları, tarı, sazı, ev əşyaları, Mirzə Cəlilin kamançası, "Molla Nəsrəddin" jurnalı redaksiyasının divar saatı, daha nələr-nələr... sanki dil açıb adamla danışır, ölməz xatirələri yaşatmaları ilə öyündüklərini bildirirlər.

Üzü Nizami Gəncəvinin möhtəşəm abidəsinə tərəf baxan möhtəşəm muzey öz səmərəli fəaliyyəti ilə dahi mütəfəkkirin ruhunu şad etməkdədir. Biz də burada əbədi iftixarımız olan ölməzlərin zamanına "səyahət" etdik, ruhən bir az da təmizləndik, daxilən zənginləşdik.

*Əli NƏCƏFXANLI*
*XQ*

**Məmməd İsmayıl – 85**

# "Hələ yaşamağa dəyər bir az da..."



**Bu gün Azərbaycanın görkəmli söz ustadı, poeziyamızın qiymətli imzası Məmməd İsmayılın 85 yaşı tamam olur. Ədəbi-mədəni ictimaiyyət ünlü şairimizin növbəti yubileyini də sevgi, sayğı ilə qeyd edir.**

Bu ilin may ayında Məmməd İsmayıl müalicə aldığı xəstəxanadan evə gələndə şairin qızı İntizar mənə zəng etmişdi ki, atam özünü yaxşı hiss edir, müsahibəyə də razılıq verib. Beləcə, şair ayağa qalxan kimi İntizarın mənə zəng etməsi ilə arzum gerçəkləşdi. Ustad şair 40 ildən çox yaşadığı mənzilində ötən illərin yaddaşına həvəslə qayıtdı, ürəyində kök salmış söz süfrəsini səxavətlə açıb-tökdü. Bu barədə "XQ"-də geniş material verdik.

Bu günlərdə isə Beynəlxalq Muğam Mərkəzində sözün qüdrətinə pənah gətirən ziyalılarımız Azərbaycan poeziyasının gur nəfəslərindən birinin – Məmməd İsmayılın başına yığışmışdı. Belə bir ədəbi-bədii məclisin təşkil olunması dövlətin, xalqın öz şairinə hörmətinin, məhəbbətinin təzahürü idi.

İlahidən şair doğulan Məmməd İsmayıl ona dəyər verənlərin qarşısında sanki bir ömür hesabatı verirdi. Əslində o, bu görüş üçün çox darıxmışdı. Xalqın, vətənin, el-obanın sevgisindən böyük nə ola bilərdi? Məmməd bəy ta uşaqlıqdan, Tovuzun Əsrik-Cırdaxan kəndindən söz boxçasını əlinə alıb yola çıxmışdı. O, bu yolun keşməkeşli harayından, fırtınasından qorxmamışdı, çünki şair sözün dərgahında imtahana hazır idi. Poetik ruhlu pıçıltıları bunu deyirdi: "Sözü mən dəlicəsinə sevmişəm... Həqiqətən, ilhamla gələn söz adamı ilim-ilim titrədir. Mənim könlüm söz mülkündə elə ağacdır ki, meyvəsi sinəmdə, kökü sinəmdə".

Bəli, bu sətirlər Məmməd İsmayıl qələminin sehridir. Şairlə sözün qüdrətindən danışanda gözlərinin dərinliyindəki qığılcım sanki dil açıb 85 illik ömür yolunun hesabatını qürurla verirdi: "Söz mənə Allahın payıdır. Ürəyimdən qopan misralar məni Məmməd İsmayıl etdi. Hər sətrimin içində anamın ürəyinin səsini, döyüntülərini hiss etdim, anamın ürəyindən güc aldım. Məni mən edən Gülzar anam oldu!

Sonra şair sanki anası ilə üzbəüz dayanıb ona müraciət elədi: "Oğlun Məmməd 85-ə gəlib çıxdı. Ana, bu yaxınlarda uşaqlar məni həsrətində olduğum kəndimizə apardılar, sənin həsrətini, nisgilini içimə çəkdim, ay Ana! Evimizin qapısı ilə üzbəüz mazutlu elektrik dirəyində ağacdələnlərin yuvasını çox axtardım, amma gözümə dəymədilər. Mənim səhvim üzündən ağacdələnlər küsüb gedib. Çünki ağacdələn taxta qapıya pənah aparır, dəmir qapı ona yaddır, ögeydir. Mən insafsız nə biləydim ki, taxta qapını dəmir qapı ilə əvəz edəndə ağacdələn haqsızlığa fəryad qoparıb həyətimizdən uzaqlaşacaq..."

Məmməd İsmayılın əksər yazıları həyatın, bax, belə təzadları üzərində qurulub. Onun çatdırmaq istədiyi budur: Təbiətin müqəddəsliyi ondadır ki, sən ona hökm edə bilməzsən, perikən ağacdələnin timsalında bu, aşkar görünür. Şair Məmməd ağacdələn sevdasından yaza-yaza həyatı anlamağa başlayıb, anasının ağ-qara hörüklərinə baxa-baxa etibarsız dünyada həqiqət axtarıb, Bakıya üz tutub. "Məmməd İsmayıl" imzasını tanıdana kimi sözün qüdrətinə sığınıb, saxta baxışlarla qarşılaşanda büdrəsə də, sınmayıb, sarsılmayıb. İllər onu dəmir kimi döyüb bərkidib, şaxtalı yollarını yazdığı şerlərlə qızdırıb. Sözün dərgahında imtahan verə-verə Moskvaya yollanıb. Maksim Qorki adına Dünya Ədəbiyyatı İnstitutunun nəzdindəki Ali Ədəbiyyat kurslarında keçirdiyi hər gün, hər saat daha inamlı, daha cəsarətli Məmməd İsmayıl yetişdirib.

Sonra Bakıda "İşıq" nəşriyyatının direktoru, "Gənclik" və "Molodost" jurnallarının baş redaktoru, AzTV-nin sədri vəzifələrində çalışıb. 1996-cı ildən qardaş Türkiyədə – Çanaqqala 18 Mart Universitetinin professoru kimi dərs deyib.

Beynəlxalq Muğam Mərkəzində keçirilən möhtəşəm yaradıcılıq gecəsində hər kəsin simasından bir həqiqət oxunurdu: Bu kişi tarixin bütün dönəmlərində simasını, şəxsiyyətini itirmədi, bugünkü orta nəsil qələm sahiblərinə bacardığı qədər dayaq olub. Novatorluğu ilə poeziyamızın qiymətli imzası olub.

**Mənim bir gecikmiş məhəbbətim var,**
**Dönüb nağıllaşan həqiqətim var.**
**Səni səsləyirəm, ay ev yiyəsi,**
**Səsimə səs versin o tayda kim var.**
**Dodaqlarda donan bir busə kimi**
**Harda görünür ki, sönə arzular.**
**Qıvrıla-qıvrıla bir gürzə kimi**
**Əsrin ovsununa yatıb Araz da**
**Dünyanın işini nə bilmək olar,**
**Hələ yaşamağa dəyər bir az da.**

Şairin özünə hesabatı idi o görüş. Yenə anası gəlmişdi gözləri önünə: "Möcüzəli bir yol gəldim, amma əqidəmə, cəsarətimə dönük çıxmadım, Gülzar anamın aglı-qaralı hörükləri mənim üçün əbədi bir yol açdı, mən o cığırla gedən Məmmədəm bu gün də! Ey mənim taleyim, sən 44 günlük Zəfər tariximizi də gördün. Şair nə bəxtiyarsan?! Əgər ömür vəfa qılsaydı, Müzəffər Ordumuzun bu şanlı şücaətini nəzmə çəkərdim".

Bəli, Məmməd İsmayıl kimi qaranlığa işıq salmaq, dünyanın gözəlliyini, bəşəriyyətin insanlığını nəzmə çəkmək o deməkdir ki, yaşamaq da gözəldir, yaratmaq da! 1noyabr 1939-cu ildə Əsrik-Cırdaxan kəndində doğulmuş Məmməd parlaq bir şair taleyi yaşayır. Ona cansağlığı, uzun ömür və İlahi gücün verdiyi böyük ruh arzulayırıq.

*Kəmalə ABDİNOVA*
*XQ*

# Gəncə Dövlət Milli Dram Teatrı Bakıda



**Bakıda Gəncə Dövlət Milli Dram Teatrının "Toros canavarı" tamaşası nümayiş etdirilib. Türk yazıçısı Əziz Nesinin eyniadlı pyesi əsasında hazırlanmış tamaşa Gənc Tamaşaçılar Teatrında izləyicilərdə xoş ovqat yaradıb.**

Məişət mövzulu komediyanın quruluşçu rejissoru İstanbulun Maltəpə Bələdiyyə Teatrının baş rejissoru, Avrasiya Teatrlar Birliyinin baş katibi Kubilay Erdelikara, rejissoru ATB-nin Azərbaycan təmsilçisi Yusif Cəfərov, quruluşçu rəssamı Mustafa Mustafayevdir.

Satira ustası Əziz Nesinin yaratdığı personajları Əməkdar artistlər İlham Hüseynov, Sevda Orucova, Novruz Cəfərov, Ramiz Vəliyev, aktyorlar Günay Cabbarova, Samir Abbasov, Akif Səfərov, Emil Salmanov, Elmir Məmmədov və Həsən Cəfərov ifa ediblər.

Şərlənərək həbs edilən "Toros canavarı" ləqəbli qəhrəmanın bəlalı taleyindən bəhs edən səhnə əsəri Bakı səhnəsində anşlaqla qarşılandı. Bu bir sosial komediyadır. Süjet xətti ev sahibi və kirayənişinin, vətəndaş və cəmiyyət düzəni çatışmaları üzərində qurulub. Məzə və ironiyanın hakim olduğu bir dillə seyrçi marağı yaradılır. Teatrsevərlərin alqışları səhnə işinin uğurlu alınmasının sübutu idi.

**Teatr və kino aktyoru, Əməkdar artist Şövqi Hüseynov tamaşanı yüksək qiymətləndirdi. "Xalq qəzeti"nə fikirlərini bölüşən aktyor bildirdi ki, belə layihələr teatrımızın inkişafına dəstəkdir:**

– Tamaşanın gözlənilməz sonluğu maraqlı olduğu üçün teatrsevərlərdə maraq yarada bildi. Aktyorların oyunu da yüksək səviyyədə idi. Tamaşaçı olaraq mən də maraqla izlədim. Region teatrlarının Bakı çıxışları gərəkli layihə kimi özünü doğruldur, auditoriyanı genişləndirir. Mədəniyyət Nazirliyi və AzTV-nin "Mədəniyyət" kanalı bu layihəyə dəstək verir. Kanal belə tamaşaları canlı yayımlayır. Bütün bunlar teatrımızın inkişafına xidmət göstərir.

Tamaşadan sonra jurnalist həmkarım Etibar Cəbrayıloğlu da "Toros canavarı"nı maraq və həyəcanla izlədiyini dedi. Onun dediklərinə görə, bu tamaşa bir daha təsdiqlədi ki, Gəncə Dövlət Milli Dram Teatrı işini uğurla edir, repertuarını zənginləşdirir.

Xatırladaq ki, "Toros canavarı" İstanbulda keçirilən VI Maltəpə Beynəlxalq Teatr Festivalında nümayiş etdirilib.

*Rizvan FİKRƏTOĞLU*
*XQ*

# TİKA nümayəndəsi Bolnisidə

**"Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi" Tbilisi nümayəndəliyinin yeni rəhbəri Zeynəb Bayraq Bolnisi rayonunda "Qafqaz Hüquq və İnteqrasiya Mərkəzi"ndə olub.**



Mərkəzin icraçı direktoru Rezo Həsənov qonağa keçirdikləri tədbirlər, ödənişsiz dil kursları, hüquq xidmətləri və digər fəaliyyətlər haqqında məlumat verərək bildirib ki, 2021-ci ildən qurum Azərbaycan dövlətinin dəstəyi ilə Gürcüstan cəmiyyətinə inteqrasiya istiqamətində işlərini uğurla davam etdirir.

Zeynəb Bayraq Azərbaycan Respublikasının Diaspora ilə İş üzrə Dövlət Komitəsinin mərkəzə dəstəyini alqışlayıb, gələcəkdə QHİM və TİKA arasında əməkdaşlıq lüzumu haqqında söhbət açıb.

Sonda "Qafqaz Hüquq və İnteqrasiya Mərkəzi"nin rəhbəriyi Zeynəb Bayrağa yeni vəzifəsində müvəffəqiyyət arzulayıb.

*P.ƏMİRCANOV*
*XQ*

Abas Talışinski – 100

# Geniş bilikli alim, təcrübəli pedaqoq

*SSRİ məkanında məşhur tibb professoru olmuş soydaşımızın yubileyinə*

**Ryazan fundamental otorinolarinqologiya məktəbinin banisi Abas Mehdi oğlu Talışinski Ryazan şəhərində ilk LOR əməliyyatları, o cümlədən onkoloji əməliyyatlar icra edən otorinolarinqologiya klinikasının yaradıcısıdır. O, Sovet İttifaqında ilk dəfə olaraq ambulator əməliyyatlar üçün ümumi anesteziya üsulunu praktikada tətbiq etmiş, hələ də istifadə olunan və onun adını daşıyan ağız dilatatoru işləyib hazırlamışdır. Onun bu yeniliyi patentə layiq görülmüşdür. Professor A.Talışinski xoruldamanın cərrahi müalicə üsulunu işləyib hazırlamışdır. SSRİ-də ilk belə əməliyyat məhz 1967-ci ildə Ryazanda həyata keçirilmişdir.**



Talış xanlarının nəslindən olan Abas Mehdi oğlu Talışinski 1924-cü il sentyabr 15-də Azərbaycanın Lənkəran şəhərində doğulmuşdur. O, Azərbaycan Tibb İnstitutunun pediatriya fakultəsini sürətlənmiş təhsillə bitirdikdən sonra 1944-cü ildə hərbi xidmətə çağrılmışdır. Belarusiyanın, Polşanın faşistlərdən azad olunmasındakı döyüşlərdə iştirak etmişdir. Öz döyüş yoluna Belarusiya Cəbhəsi tərkibindəki artilleriya polkunda baş həkim vəzifəsində başlamışdır.

9 May Qələbə gününü tibbi xidmət mayoru kimi Almaniyada qarşılamışdır. O, 1945-ci ildə Berlində tarixi Qələbə paradının iştirakçısı olmuşdur.




**Semaşko adına xəstəxanada professor Abas Mehdi oğlu Talışinskiyə xatirə lövhəsi qoyulmuşdur**

1947-ci ildə Sovet ordusu sıralarından tərxis olunduqdan sonra Bakıya qayıtmış və 1950-ci ilə qədər Azərbaycan Elmi-Tədqiqat İnstitutunun otorinolarinqologiya şöbəsində ordinator vəzifəsində işləmişdir. Sonra N.İ.Piraqov adına İkinci Moskva Tibb İnstitutunun LOR xəstəlikləri klinikasında klinik ordinaturada, 1953-cü ildən isə bu xəstəxananın bazasında aspiranturada oxumuşdur.

Bu dövrdə A.M.Talışinski qulaq patologiyası və onun cərrahi müalicəsində novokain ilə yerli ağrısızlaşdırma məsələləri üzərində ciddi və səmərəli iş görmüşdür. Bu, hər şeydən əvvəl, orta qulaqda əməliyyat, mastoidektomiya zamanı lazım olan məməyəbənzər çıxıntının, boyun kələfinin, arxa qulaq sinirinin, xarici qulaq keçəcəyinin divarlarının keyləşdirilməsinə aiddir. Bu böyük işin yekunu kimi 1954-cü ildə "Klinik-anatomik şərhdə qulaq cərrahiyyəsində ağrısızlaşdırma məsələləri" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.

1955-ci ildə Abas Talişinski müsabiqə yolu ilə assistent, 1958-ci ildə akademik İ.P.Pavlov adına Ryazan Tibb İnstitutunun otorinolarinqologiya kafedrasının dosenti seçilir. Yüksək tibbi fəallığı, səmərəli elmi və tərbiyəvi fəaliyyəti onun 1964-cü ildə qulaq, burun və boğaz xəstəlikləri kafedrasına müdir seçilməsi üçün əsas olmuşdur. Kafedra müdiri vəzifəsində o, 25 il müddətində – 1989-cu ilə qədər, 1984-2004-cü illər arasında isə Ryazan Dövlət Tibb Universitetinin LOR xəstəlikləri klinikasında professor-məsləhətçi işləmişdir.

1964-cü ildə onun "Əsas otorinolarinqoloji operasiyalar zamanı müxtəlif ağrısızlaşdırma növlərinin müqayisəvi qiymətləndirilməsi" mövzusunda doktorluq dissertasiyasının müvəffəqiyyətlə müdafiəsi olmuşdur (elmi konsultant – professor B.S.Preobrajenski).

Bu fundamental əsərdə A.M.Talışinski heyvanlar üzərində eksperimental tədqiqatlar və klinikadakı operasiya materialları əsasında LOR cərrahi əməliyyatlar zamanı ümumi ağrısızlaşdırmanın vacibliyini və zəruriliyini göstərmişdir. 1966-cı ildə A.M.Talışinskiyə SSRİ AAT tibb elmləri doktoru elmi dərəcəsi, 1967-ci ildə isə professor adı verilmişdir.

A.M.Talışinski, faktiki olaraq Ryazanda otorinolarinqoloji məktəbin yaradıcısıdır. O, ilk dəfə olaraq LOR cərrahiyyəsi zamanı endotraxeal insuflyasion narkozu tətbiq etmişdir. Professor Talışinski xorultu və yuxuda obstruktiv apnoe sindromlu xəstələrin müalicəsində orijinal cərrahi metod təklif etmişdir. Onun rəhbərliyi altında 1967-ci ildə kafedranın gənc assistenti İ.V.Yeliseyev SSRİ-də ilk dəfə olaraq nasazlığın müalicəsində uğurlu cərrahi əməliyyat tətbiq etmişdir. Professor A.M.Talışinskinin səyi ilə Ryazan şəhərində N.A.Semaşko adına xəstəxananın bazasında sonralar belə patologiyası olan xəstələrin müalicəsində mərkəz yaradılmışdır.

Kafedrada oxuyan tələbələr və əlavə professional təhsil mərhələlərində ixtisas artıran praktik həkimlər üçün klinikanın əməkdaşlarının müxtəlif LOR patologiyası olan xəstələrin müalicəsinin klinik müşahidələrini əks etdirən makropreparatlardan ibarət nadir muzey yaradılmışdır.

Professor A.M.Talışinski "İntubasiyanın və endotraxeal narkozun tarixi" monoqrafiyasının müəllifidir. Bu sahədə özünün professional təcrübəsini və nailiyyətlərini o 87 elmi əsərdə nəşr etdirmişdir; o dörd ixtiraya, o cümlədən endotraxeal narkoz altında tonzillektomiya etmək üçün ağızgenişləndiriciyə müəlliflik şəhadətnaməsi almışdır.

A.M.Talışinski prinsipial və tələbkar rəhbər, hamıya qarşı qayğıkeş, yüksək erudisiyalı alim və təcrübəli pedaqoq olmuşdur. O səxavətlə öz böyük professional təcrübəsini praktik həkimlərə verərdi və daim gənclər ilə biliyini bölüşdürərdi. Onun rəhbərliyi altında doqquz nəfər namizədlik dissertasiyasını müdafiə etmişdir.

O, professional əhatədə layiqli hörmətə malik olmuşdur: "Vestnik otorinolarinqologii" mərkəzi jurnalının redaksiya şurasının üzvü olmuş, otorinolarinqoloqların ümumrusiya və Moskva elmi-praktik cəmiyyətinin idarə heyətini təmsil etmiş, otorinolarinqoloqların Ryazan vilayət elmi-praktik cəmiyyətinə rəhbərlik etmişdir.

Bütün həyatını, o, otorinolarinqologiyaya həsr etmişdir. Abas müəllim Ümumittifaq səviyyəsində, eləcə də Rusiyada sayılıb-seçilən alim, klinisist, cərrah və pedaqoq olmuşdur.

Abas Talişinskinin şərəfli döyüş və əmək yolu dövlət və hökumət tərəfindən layiqincə qiymətləndirilmişdir. "Vətən qarşısında xidmətlərinə görə", "Vətən müharibəsi", "Qızıl Ulduz" (II dərəcəli) ordenləri, "İgidliyə görə", "Berlinin alınmasına görə", "1941–1945-ci illərdə Böyük Vətən Müharibəsində Almaniya Üzərində Qələbəyə görə", "Georgi Jukov" medalları, həmçinin 1941–1945-ci illərdə Böyük Vətən Müharibəsində Qələbənin altı ildönümünə görə yubiley medalları, habelə "Səhiyyə Əlaçısı" fəxri nişanı ilə təltif olunmuşdur. N.A.Semaşko adına xəstəxananın professor A.M.Talışinskinin işlədiyi korpuslarının birində onun şərəfinə 2020-ci ildə xatirə lövhəsi vurulmuşdur.

A.M.Talışinski Ryazanda 23 oktyabr 2005-ci ildə 81 yaşında vəfat etmiş və Bakı şəhərindəki Yasamal qəbiristanlığında dəfn olunmuşdur. Abas müəllimin əziz xatirəsi onu yaxından tanıyanlarının, qədirbilən həmkarlarının yadından heç vaxt çıxmayacaqdır.

***R.KALİNİN,***
***Ryazan Dövlət Tibb Universitetinin rektoru,***

***V.KİLYUŞİN,***
***kafedra müdiri,***

***N.KOZEYEVSKAYA,***
***sektor müdiri***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*ASCO-nun tabeliyindəki idarələrə tələb olunan FMV-nin (geyimlərin) satın alınması məqsədilə*

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il noyabrın 7-si saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu– (012) 404-37-00, daxili: 1263.

Ünvan– Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

**Azərbaycan Texnologiya Universiteti**

*aşağıda adları göstərilən vakant vəzifələrin tutulması üçün*

MÜSABİQƏ ELAN EDİR

**- "İdarəetmə" kafedrası – kafedra müdiri**
**- "Xarici dillər" kafedrası – kafedra müdiri**

Sənədlərin təqdim olunması bu elan dərc edildiyi tarixdən 1 ay müddətindədir.

Müsabiqədə iştirak etmək üçün sənədlər Azərbaycan Respublikası Təhsil Nazirliyinin 5 fevral 2018-ci il tarixli F-100 nömrəli "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması qaydaları"nın tətbiqi barədə əmrə uyğun elan olunduğu gündən başlayaraq 1 ay müddətində qəbul edilir.

Sənədlər təlimata uyğun olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir.

Əlaqə telefonu– 022-257-56-29.

Ünvan– AZ 2011, Gəncə şəhəri, Ş.İ.Xətai prospekti 103.

***REKTORLUQ***

Reportaj

# Gimnaziada komandamız Vətənə qələbə ilə qayıtdı

*160 məktəblimiz 81 medal qazanıb*



**Bəhreynin paytaxtı Manama şəhərində təşkil edilmiş Gimnaziada İdman Oyunlarında uğurla çıxış edən Azərbaycan idmançıları Vətənə qayıdıblar. Komandanı Heydər Əliyev Beynəlxalq Aeroportunda media nümayəndələri, azarkeşlər və idmançıların yaxınları coşqu ilə qarşılayıblar.**



Jurnalistlərə müsahibə verən Gənclər və İdman Nazirliyinin sektor müdiri Elvin Zeynallı XX Gimnaziada İdman Oyunlarında komandamızın uğurla çıxış etdiyini bildirdi. O qeyd etdi ki, yığmamızı təmsil edən 160 idmançı 81 medal qazanıb ki, bu da yaxşı nəticədir:

– Komandamızın üzvləri uğurla çıxış etdilər. Onlar həm də bu yarışda böyük təcrübə qazandılar. İştirakçılardan yaşca ən kiçiyi 2011-ci il təvəllüdlü Paşam Əlizadə, böyüyü isə paraüzgüçü Nurcan Rüstəmli idi. Onlar hələ gəncdirlər və böyük perspektivləri var. Ümid edirik ki, idmançılarımız gələcəkdə daha nüfuzlu yarışlarda yüksək nəticələr əldə edəcəklər.



**Boks Federasiyasının Veteran və Çempionlar Komitəsinin sədri Şahin İmranov boksçularımızın ölkəmizi layiqincə təmsil etdiklərini bildirdi:**

– Boksda bir qədər durğunluq var idi. Olimpiya Oyunlarında komandadan daha yüksək nəticələr gözləyirdik. Hazırda gənc boksçulardan ibarət Azərbaycan milli komandası dünya birinciliyində uğurla çıxış edir. 5 boksçumuz artıq yarımfinaldadır. Gimnaziadada boksçularımız 18 medal qazanaraq, komanda hesabında birinci yeri tutublar. Yeniyetmə və gənc boksçularımızdan gələcəkdə daha yüksək nəticələr gözləyirik. Atletlərimizin hazırlığı ilə bağlı Boks Federasiyası bütün tədbirləri görür.

**Cüdo üzrə yeniyetmə oğlanlardan ibarət Azərbaycan millisinin baş məşqçisi Rüstəm Alimli son illər yeniyetmələrdən ibarət komandanın nüfuzlu yarışlarda çıxışını lider kimi başa vurduğunu bildirdi:**

– Bu yarışda da yaxşı çıxış etdik. Düzdür, daha çox medal qazana bilərdik. Cüdoçularımız oyunları 2 qızıl, 4 gümüş və 7 bürünc medalla başa vurdular. Azərbaycan yığması medal əyarına görə ümumi hesabda 2-ci, oğlanlar arasında birinci yeri tutdu. Qızıl medalları Məhəmməd Rüstəmli (50 kq) və Məhəmməd Ağakişiyev (73 kq) qazandılar. 90 kiloqramdan yuxarı çəki dərəcəsində Sübhan Axundov və Əli Hümbətovdan (66 kq) da qızıl medal gözləyirdik. Onlar 3-cü yeri tutdular. Bu yarış idmançılarımıza zəngin təcrübə qazandırdı.

**Məşqçi növbəti ildə yığmamızı Dünya, Avropa birincilikləri, Avropa Gənclər Olimpiya Festivalı və MDB Oyunları kimi məsuliyyətli yarışların gözlədiyini vurğuladı:**

– MDB Oyunları gələn il Azərbaycanda keçiriləcək. Üzərimizə düşən məsuliyyəti dərk edirik. Çalışacağıq ki, əvvəlki yarışlardan da yaxşı nəticə əldə edək.



Güləş komandamız da gimnaziadada uğurla çıxış edib. Bəhreynə yollanan 28 idmançıdan 24-ü medal qazanıb.

**Yeniyetmələrdən ibarət sərbəst güləş üzrə millinin böyük məşqçisi Əskərxan Novruzov yığmanın yaxşı formada olduğunu dedi:**

– İlboyu Avropa və Dünya çempionatlarına yaxşı hazırlaşdığımız üçün güləşçilər yaxşı formada idilər. Komandamız daha çox qızıl medal əldə edə bilərdi. Yunan-Roma güləşində 7 final var idi. Finallardan yalnız 110 kiloqram çəkidə qızıl medal ala bildik. Qadın güləşində 4 təmsilçimiz var idi. Onlar 1-i qızıl medal olmaqla 3 mükafat qazandılar.

Qadın güləşi üzrə yığmanın üzvü Esra Məmmədli yarışda qızıl medal qazanmağı qarşıya məqsəd qoyduğunu dedi:

– Hazırlığımız yüksək formada idi. Qızıl medalı hədəfləmişdim. Amma gümüş mükafat da pis nəticə deyil. Bəzi səhvlərim oldu. Onların üzərində çalışacağam. Məşqçim Solmaz Adilovaya minnətdarlığımı bildirirəm. Üzərimdə böyük əziyyəti olub. Gələcəkdə daha böyük yarışlarda yüksək nəticə göstərmək istəyirəm.



**Yunan-Roma güləşi üzrə gimnaziadanın qızıl medalçısı Mikayıl İsmayılov (110 kq) beynəlxalq arenada qələbə qazanmağın möhtəşəm hiss olduğunu dedi:**

– Bundan əvvəl Avropa və Dünya çempionatlarının mükafatlarını əldə etmişəm. Amma heç vaxt Vətənə qızıl medalla qayıtmamışdım. Final görüşündə yalnız qalib gəlməyi düşünürdüm. Hakim haqsızlığına baxmayaraq, qızıl medala layiq görüldüm.

Qeyd edək ki, Azərbaycan yarışda aerobika, bədii və idman gimnastikası, badminton, boks, kamandan oxatma, güləş, tennis, taekvondo, stolüstü tennis, qılıncoynatma, şahmat, cüdo, paracüdo, üzgüçülük və paraüzgüçülük üzrə 160 idmançı ilə təmsil olunub. Komandamız yarışı 26-sı qızıl, 26-sı gümüş, 29-u bürünc olmaqla, ümumilikdə 81 medalla başa vurub.

***Leyla QURBANOVA,***
***Elşən AĞALAR***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 241 (30645) 1 noyabr 2024-cü il, cümə

## İdman xəbərləri

# Avropa birinciliyində 4 mükafat

**Azərbaycan ağırlıqqaldıranı Ravin Alməmmədov (81 kq) Polşanın Raşin şəhərində keçirilən gənclər və 23 yaşadək atletlər arasında Avropa birinciliyində uğurla çıxış edərək 1 dəst medal qazanıb.**




İdmançı birdənqaldırmada 151 kiloqram çəki nəticə ilə qızıl medala layiq görülüb. Təkanlaqaldırmada 187 kiloqram çəkinin öhdəsindən gələn atletimiz 2-ci yeri tutub. O, toplam 338 kiloqram (151+187) göstərici ilə yekun sıralamada da 2-ci olub.

Qeyd edək ki, Avropa birinciliyində bundan əvvəl Qasım İsmayılov (67 kq) bürünc medal əldə edib.

# Boksçularımızın tarixi uğuru

**Gənc boksçulardan ibarət Azərbaycan milli komandası Monteneqronun Budva şəhərində keçirilən Dünya çempionatında rekord qazanıb.**




Baş məşqçi Elbrus Rzayevin rəhbərlik etdiyi millimizin 5 boksçusu mundialın yarımfinalına adlayıb. Bilalhəbaşi Nəzərov (48 kq), Zidan Hümbətov (51 kq), Məhəmmədəli Qasımzadə (60 kq), Əli Abdullayev (63,5 kq) və Aynur Mikayılova (57 kq) 1/4 final mərhələsini qələbə ilə başa vurublar. Bununla da yığmamız yarışın 5 mükafatını təmin edib.

Bu nəticə Azərbaycan boksu tarixində yeni rekorddur. Millimiz indiyədək gənclərin dünya birinciliyində heç vaxt bu qədər mükafat qazanmayıb. Xatırladaq ki, əvvəlki rekord 2004-cü ildə qeydə alınmışdı. 20 il əvvəl 4 boksçumuz yarımfinala adlamışdı. Cənubi Koreyanın Jeju şəhərində keçirilən mundialda boksçularımız 4 bürünc qazanıblar.

Aynur Mikayılova isə mundialda ilk medalçı azərbaycanlı qız boksçu olacaq. İndiyədək heç bir idmançımız bunu bacarmayıb.

# Taekvondo millisinin baş məşqçisi

**Qadın taekvondoçulardan ibarət Azərbaycan milli komandasına tanınmış dayanq ustası Fəridə Əzizova rəhbərlik edəcək.**



O, yığmanın sükanı arxasında Cənubi Koreya çalışdırıcısı Sun Mi Parkı əvəz edəcək. Qeyd edək ki, Fəridə Əzizova Dünya və Avropa çempionatlarının bürünc, I Avropa Oyunlarının gümüş mükafatçısı, İslam Həmrəylik Oyunlarının qalibidir.

*LA ZAD*
*XQ*

## Təqdimat

# Qazinin “Allaha salam”ı

**Dünən Nizami Kino Mərkəzində Yazıçılar Birliyinin mətbuat xidmətinin rəhbəri, şair Xəyal Rzanın rejissorluq etdiyi “Allaha salam” filminin təqdimatı olub. Film Birinci Qarabağ müharibəsindən bəhs edir.**



Mərasimdə çıxış edən filmin əsas obrazı, Xalq artisti Məmmədsəfa Qasımov layihənin qısa müddət ərzində peşəkarlıqla ərsəyə gəlməsini böyük uğur kimi qiymətləndirib. O bildirib ki, ekran əsərində qazi obrazına həyat verir, filmdə döyüşçünün müharibədən sonra evinə qayıdanda yaşadığı ağrı-acıları təsvir olunur. Çəkilişlər Şamaxı və Şabran rayonlarında aparılıb.

Xatırladırıq ki, əsərin bədii rəhbəri, Xalq artisti Oqtay Mirqasımov, ssenari müəllifi və rejissoru Xəyal Rzadır.

*XQ*

# BDU-da “Çin mədəniyyəti günü”




**Bakı Dövlət Universitetində fəaliyyət göstərən Konfutsi İnstitutu “Çin mədəniyyəti günü” keçirib. Toplantı Konfutsi İnstitutunun dünya üzrə fəaliyyətə başlamasının 20 illik yubileyinə həsr olunub.**

Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan bildirib ki, BDU-da 2004-cü ildən Çin üzrə regionşünaslıq ixtisası açılıb. 2011-ci ildən isə Çinin Anhui Universiteti ilə əməkdaşlıq nəticəsində BDU-nun nəzdində Konfutsi İnstitutu fəaliyyətə başlayıb. İnstitutda Çin dili və mədəniyyətinin öyrənilməsi, təbliği sahəsində mühüm işlər görülür. Çin dili üzrə beynəlxalq yarış təşkil olunur. Yarışın qalibi Çində ölkəmizi təmsil edir. 2022-ci ildən isə Şərqşünaslıq fakültəsində Çin filologiyası ixtisası açılıb.

BDU-nun nəzdində Konfutsi İnstitutunun direktoru Vanq Haoqianq isə bildirib ki, rəhbərlik etdiyi qurumun əsas məqsədi Çin dilinin əsaslarının keyfiyyətli tədrisi, təhsil sahəsində Azərbaycan və Çin əməkdaşlığının, elmi və mədəni mübadilənin genişləndirilməsidir.

Mərasimdə Şərqşünaslıq fakültəsinin tələbələri Çin rəqsləri, mahnıları ifa ediblər. Ənənəvi çay süfrəsi açılıb, Çin milli əl oyunları nümayiş olunub.

*XQ*

## Maraq dünyamız

# Təbrizdə Azərbaycan Tarixi Muzeyi

## *Orada “Səfalət zəncirləri”adlı heykəllər və “Bismillah!” daşı da var*

**“Xalq qəzeti”ndə verilmiş yazılarımı vərəqləyərkən “Təbrizdə “Bismillah!” daşı da var” adlı qeydlərimi gördüm. Onu da əlavə edim ki, Təbrizdə üzərində “Bismillah!” ayəsi oyularaq yazılmış bir neçə daş var. 2000-ci ildə biz o daşların ən böyüyünü – indi çəkisini yaza bilmirəm, amma 2 tondan çox olduğunu eşitmişdim – həm də adi daş rəngində olanını görmüşdük. 2004-cü ildə isə heykəltaraş Əhəd Hüseynin hazırladığı xeyli kiçik, həm də qızılı rəngli “Bismillah!” daşını gördük.**



Xatırladaq ki, Təbrizdə doğulub böyümüş Əhəd Hüseyni 1972-ci ildə İtaliyadakı İncəsənət Akademiyasında təhsil almışdır. Təbrizə geri döndükdən sonra mütəmadi şəkildə heykəltaraşlıqla məşğul olan sənətkar 12 heykəldən ibarət olan “Səfalət zəncirləri” adlı əsərini yaratmışdır. Böyük ürək sahibi olan soydaşımız bu əsərini Azərbaycan muzeyinə hədiyyə etmişdir. Sənətkar həmin heykəllərin hamısını tuncdan yaratmış və onları insanın ağrı-acılarını göstərən şəkildə təqdim edə bilmişdir.

Qızılı rəngli daş Azərbaycan muzeyinin birinci mərtəbəsində saxlanılır. Orada Əhəd Hüseyninin öz qalereyası var idi. Bu muzey 3 böyük salon, bağça, ofislər və kitabxanadan ibarətdir. Bələdçilər danışmışdılar ki, milli muzeylər içərisində ən zəngin kolleksiyaya sahib olan bu saxlanc əksəriyyəti Azərbaycandakı qazıntılarda tapılmış tarixi eksponatlardan ibarətdir.

Maraqlı məqamlardan biri də odur ki, muzeyin kitabxana bölməsində tarix, arxeologiya, sənət, region və Şərq mədəniyyəti haqqında yazılmış (bəziləri əlyazma şəklində olan) 2 min 500-dən çox kitab var. Bu mədəniyyət ocağı Təbrizin böyük muzeylərindən biri sayılır. Eksponatlar arasında olan tarixi sikkələrin ən qiymətlisi Makedoniyalı İskəndərin zabitlərindən biri olan Selevkə aiddir. O da yadımdadır ki, muzeydə külli miqdarda sikkə və möhürlər də nümayiş etdirilir.

Bu muzeyə gedəndə Xaqani parkının və Göy məscidin yanından keçmişdik. Biz orada qədim əsrlərdən etibarən Sasani dövlətinin sonuna (656) qədərki dövrə aid nümunələri, ilahə və tanrıçalara həsr edilmiş heykəlləri, 2 insan skeletini (qadın və kişi) və təbii ki, “Bismillah!” daşını görmüşdük.

*İttifaq MİRZƏBƏYLİ*

## Sağlamlıq

# Qazlı su, yoxsa qaynamış su?

**Bir çox mütəxəssislər qazlı su içməyin zərərli olduğunu iddia edirlər. Dietoloq-həkimlərin fikrincə, bu, səhv məlumatdır.**



Rusiyanın məşhur ürək cərrahı, professor Leo Bokeriya hər gün qazlı su içməyi tövsiyə edib. Professorun sözlərinə görə, qazlı suyun tərkibindəki oksigen təhlükəli bakteriyaları öldürür.

Təbii mineral qazlı suyun faydası ondadır ki, tərkibindəki həll olunmuş oksigen bağırsaqlardakı faydalı bakteriyalara kömək edir, zərərli bakteriyaları isə məhv edir. Bundan əlavə, hüceyrələri qidalandırır, qan plazmasını təmizləyir, hemoqlobinin səviyyəsini artırır. Su, həmçinin bədənin qan dövranı, ürək-damar və sinir sistemlərinə müsbət təsir göstərir.

“İnsan orqanizminin, mədə-bağırsaq traktında 2 növ – aerob və anaerob mikrobları mövcuddur. Qazlı su istehlak etdikdə isə onları məhv edirsiniz. Çünki qazlı suyun tərkibində daha çox oksigen var”, – deyə mütəxəssis izah edib.

Rusiyalı professor qaynamış su içməyi “faydasız” adlandırıb. Leo Bokeriya Rusiya mətbuatına verdiyi müsahibəsinin sonunda ona verilən “Qazlı su, yoxsa qaynamış su? Hansı daha faydalıdır?”– sualına belə cavab verib: “Mənə görə qaynamış su heç bir xeyri olmayan, ölü sudur. Onun orqanizmə zərrəcə faydası yoxdur”.

*Z.HÜSEYNLİ*
*XQ*

## Hava



# Yağmursuz və dumanlı

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, noyabrın 1-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə bəzi yerlərdə zəif duman olacaq.**

Şimal-qərb küləyi əsəcək, günün ikinci yarısında mülayim cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 10-13°, gündüz 15-20° isti olacaq. Atmosfer təzyiqi 764 mm civə sütunundan 767 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 70-80, gündüz 50-55 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 6-11°, gündüz 17-22° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 10-15° isti olacaq.

*QQ ASIMOV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Dillər Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi Azərbaycan Respublikasının Elm və Təhsil nazirinin köməkcisi Taleh Əhmədova bacısı

**GÜNEL ABDULLAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

**ÜNVANIMIZ:**
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

| | |
|---|---|
| İNDEKS | 0282 |
| TİRAJ | 4001 |
| SİFARİŞ | 2485 |
| QİYMƏTİ | 60 qəpik |

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00